**BİRİNCİ VİTSE-PREZİDENT MEHRİBAN ƏLİYEVA "ƏSRİN MÜQAVİLƏSİ"NİN 25 İLLİYİ İLƏ ƏLAQƏDAR İNSTAQRAM SƏHİFƏSİNDƏ PAYLAŞIM EDİB**

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva "Əsrin müqaviləsi"nin 25 illiyi ilə əlaqədar İnstaqram səhifəsində paylaşım edib. AZƏRTAC xəbər verir ki, Birinci vitse-prezidentin paylaşımında deyilir: **"Əziz dostlar, iyirmi beş il əvvəl ölkəmizin iqtisadi müstəqilliyinin təməlini qoyan "Əsrin müqaviləsi" imzalanıb.**

**Azərbaycanda neftçi peşəsi hər zaman şərəfli və hörmətli peşələrdən biri sayılıb və sayılır. Əziz neftçilər, biz sizinlə, sizin peşə uğurlarınızla fəxr edirik. Qəhrəmanlığa bərabər əməyinizə, fədakarlığınıza görə çox sağ olun. Sizi bu yubiley münasibətilə ürəkdən təbrik edirəm, sizə möhkəm cansağlığı, yeni nailiyyətlər arzulayıram".**



**"İLHAM ƏLİYEV. İNKİŞAF - MƏQSƏDİMİZDİR" ÇOXCİLDLİYİNİN 87-Cİ KİTABI ÇAPDAN ÇIXIB**

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ən böyük ədalətsizlikdir. Bu işğal nəticəsində bizim vətəndaşlarımız məcburi köçkün həyatı yaşayırlar. Bütün beynəlxalq hüquq normalarını pozan Ermənistan vəhşilik törədib. Erməni faşizminin yırtıcı sifəti bu münaqişənin nəticələrində özünü büruzə verib. Ancaq Azərbaycan xalqı tam əmindir ki, biz öz ərazi bütövlüyümüzü bərpa edəcəyik, bunu etməliyik. Həm beynəlxalq hüquq, həm də haqq-ədalət bizim tərəfimizdədir. Tarixi həqiqət bizim tərəfimizdədir və güc bizim tərəfimizdədir. Bu gün dünya miqyasında güc amili ön plana çıxır və güclü ölkələr öz istəyinə nail ola bilirlər. Azərbaycan da güclü ölkədir. Güclü ordumuz, güclü iqtisadiyyatımız və düşünülmüş siyasətimiz vardır. AZƏRTAC xəbər verir ki, "İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin yenicə çapdan çıxmış 87-ci kitabında yer alan bu fikirlər 2018-ci il mayın 24-də Qaradağ rayonunda məcburi köçkünlər üçün salınmış "Qobu Park" yaşayış kompleksinin açılış mərasimində...




Bax səh. 4



Yeni Azərbaycan Partiyası Azərbaycanı müstəqillik yolunda inkişaf etdirməyə qadir bir partiyadır


# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. 21 sentyabr 2019-cu il, şənbə / № 173 (5548). Yeni Azərbaycan Partiyasının orqanı. Qiyməti 40 qəpik


# "Əsrin kontraktı"nın bizim müstəqil tariximizdə xüsusi yeri, xüsusi rolu var



*__Prezident İlham Əliyev:__ Bu gün Azərbaycan nefti müstəqil Azərbaycan dövlətinə xidmət göstərir*



## Prezidentin iş günü

Prezident İlham Əliyev "Əsrin müqaviləsi"nin 25 illiyi və Neftçilər Günü münasibətilə Azərbaycanın neft sənayesi işçilərini təbrik edib. Təbrikdə deyilir: **"Hörmətli neft sənayesi işçiləri!**

**Sizi ölkəmizin həyatında mühüm strateji rol oynamış "Əsrin müqaviləsi"nin 25 illiyi və peşə bayramınız olan "Neftçilər Günü" münasibətilə ürəkdən təbrik edirəm.**

**"Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü" haqqında 1994-cü il 20 sentyabr tarixli Saziş müstəqil Azərbaycanın gələcək inkişafının başlıca mənbəyinə çevrilmiş, onun dinamik templə sonrakı davamlı yüksəlişini təmin etmişdir.**

**Dövlət müstəqilliyimizin ilk illərindəki gərgin geosiyasi şəraitdə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin siyasi qətiyyəti nəticəsində imzalanmış və yüksək dəyərləndirilərək "Əsrin müqaviləsi" adını qazanmış bu Saziş respublikamızın iqtisadi suverenliyini əks etdirən ilk beynəlxalq neft anlaşması idi. Müqavilə bütövlükdə regionun enerji xəritəsini köklü şəkildə dəyişərək Xəzər dənizi hövzəsində əməkdaşlığa əlverişli zəmin yaratmışdır. Bünövrəsi Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş bu enerji strategiyasının ölkəmizin qısa vaxtda dünya iqtisadiyyatına inteqrasiyası və beynəlxalq mövqelərinin güclənməsində müstəsna əhəmiyyəti vardır.**

**Azərbaycan nefti və qazı bu gün dünyada sülhün, təhlükəsizliyin və tərəqqinin amillərindəndir. Ölkəmizin təşəbbüsü və liderliyi ilə Cənub Qaz Dəhlizi çərçivəsində gerçəkləşdirilən işlər Azərbaycanın potensialını nümayiş etdirir. Respublikamız, eyni zamanda, aparıcı xarici neft şirkətləri ilə ötən illərdə uğurlu əməkdaşlıq formatı reallaşdırmışdır. Tərəfdaşların təşəbbüsü ilə "Əsrin müqaviləsi"nin yenidən işlənməsi və sazişin müddətinin 2050-ci ilədək uzadılması bunun aydın təzahürüdür. Regional və qlobal əhəmiyyətli neft, qaz layihələrində ölkəmizi layiqincə təmsil edən və dünya enerji bazarında mövqelərini möhkəmləndirən Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin həyata keçirdiyi investisiya layihələri isə ölkəmizin iqtisadi qüdrətini təcəssüm etdirir.**

**"Əsrin müqaviləsi"nin misilsiz uğurları neftçilərimizin fədakar əməyinin bəhrəsidir. Məhz onların sayəsində Azərbaycan neft sənayesinin geniş infrastrukturuna malik olub, dünyada neft ölkəsi kimi tanınmışdır. Neftlə bağlı ən müxtəlif istiqamətlər üzrə görkəmli alim və mütəxəssislərimiz zəngin neft-qaz sərvətlərinin Vətənimizin yüksəlişi naminə istifadəsi üçün nəhəng işlər görmüş, ölkəmizin neft salnaməsinə parlaq səhifələr yazmışlar.**

**Azərbaycan neftçilərinin indiki nəsli olaraq siz onların yolunu böyük müvəffəqiyyətlə davam etdirirsiniz. Bu yolda hamınıza yeni nailiyyətlər arzulayıram".**

◆ ❖ ◆

Prezident İlham Əliyev Malta Respublikasının Prezidenti Corc Vellaya təbrik məktubu göndərib.

◆ ❖ ◆

Prezident İlham Əliyev Mehriban Natiq qızı İmanovanın Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun icraçı direktoru təyin edilməsi haqqında Sərəncam imzalayıb.

◆ ❖ ◆

Prezident İlham Əliyev Nizami Qulu oğlu Cəfərovun "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb.



**AZƏRBAYCANIN BAŞ NAZİRİ ÜMUMÇİN XALQ NÜMAYƏNDƏLƏRİ YIĞINCAĞI DAİMİ KOMİTƏSİ SƏDRİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞÜB**

Azərbaycan Respublikasının Baş Naziri Novruz Məmmədov sentyabrın 20-də Ümumçin Xalq Nümayəndələri Yığıncağı Daimi Komitəsinin sədri Li Canşunun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb. AZƏRTAC xəbər verir ki, Çin Xalq Respublikasının yaranmasının...

Bax səh. 4

**DƏNİZKƏNARI MİLLİ PARKDA AZƏRBAYCANIN MULTİKULTURAL DƏYƏRLƏRİNƏ HƏSR OLUNMUŞ FOTOSƏRGİ AÇILIB**

Sentyabrın 20-də Dənizkənarı Milli Parkda Azərbaycanın multikultural dəyərlərinə həsr olunmuş "Bir günəş altında" adlı fotosərgi açılıb. AZƏRTAC xəbər verir ki, sərgi Heydər Əliyev Fondunun dəstəyi, Bakı Media Mərkəzinin təşkilatçılığı ilə reallaşıb. Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva sərginin açılışında iştirak edib. Bu sərgidə Azərbaycanda yaşayan müxtəlif xalqların nümayəndələrinin Bakı Media Mərkəzinin peşəkar fotoqrafları tərəfindən lentə alınmış fotoşəkilləri təqdim edilir. Sərgidə nümayiş olunan fotoların müəllifləri Bakı Media Mərkəzinin fotoqrafları Vüqar İbadov və Zaur Mirzəyevdir. Vüqar İbadov fotosərgi ilə bağlı təəssüratlarını jurnalistlərlə bölüşərək deyib: "Bu, Heydər Əliyev Fondunun dəstəyi ilə Bakı Media Mərkəzinin reallaşdırdığı layihədir. Bu sərgidə yer alan fotoların ərsəyə gəlməsinə bir il vaxt sərf edilib. Biz bu müddət ərzində ölkəmizin bir sıra regionlarında olmuşuq. Demək olar ki, bütün fəsillərdə rayonlarda və ucqar kəndlərdə çəkilişlər aparmışıq. Bu sərgidə həm də biz ölkəmizin tolerant dəyərlərini göstəririk. Fotosərgi bundan əvvəl Fransanın Paris və Kann şəhərlərində Azərbaycan günləri çərçivəsində də təqdim olunub. Bu işin ərsəyə gəlməsində...

Bax səh. 4



**AZƏRBAYCAN ÇİN İQTİSADİYYATINA 1,7 MİLYARD DOLLAR SƏRMAYƏ YATIRIB**

Çin Azərbaycan iqtisadiyyatına 800 milyon ABŞ dollarından çox, Azərbaycan isə Çinə 1,7 milyard dollar investisiya yatırılıb. AZƏRTAC xəbər verir ki, bu barədə İqtisadiyyat naziri Şahin Mustafayev Ümumçin Xalq Nümayəndələri Yığıncağı Daimi Komitəsinin sədri Li Canşunun Azərbaycana səfəri çərçivəsində "SINOMACH Group"un marketinq direktoru, "China CAMC Engineering" şirkətinin prezidenti Luo Yanın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşündə deyib...

Bax səh. 5

***__Kristian Okerhelm:__* Azərbaycanda bütün dini konfessiya nümayəndələri üçün azad və tolerant mühit yaradılıb**

Sentyabrın 20-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı İsveçdə fəaliyyət göstərən "Həyat sözü" beynəlxalq kilsəsinin...



Bax səh. 5

**Ümumçin Xalq Nümayəndələri Yığıncağı Daimi Komitəsinin nümayəndə heyəti İçərişəhərlə tanış olub**

Azərbaycanda səfərdə olan Ümumçin Xalq Nümayəndələri Yığıncağı Daimi Komitəsinin sədri Li Canşunun başçılıq etdiyi nümayəndə heyəti sentyabrın 20-də İçərişəhərlə tanış olub...



Bax səh. 5

***__Naqif Həmzəyev:__* Ulu Öndər Heydər Əliyevin neft strategiyası Azərbaycanın daha da güclənməsinə xidmət edib**

"Əsrin müqaviləsi" ilə qoyduğumuz təməl 21-ci əsrdə Azərbaycan xalqının inkişafı, firavan həyatı, müstəqil Azərbaycan dövlətinin suverenliyinin daha da...



Bax səh. 5

**Azərbaycan xalqı Prezident İlham Əliyevin həyata keçirdiyi siyasəti dəstəkləyir**

Azərbaycan beynəlxalq müstəvidə güclü və nüfuzlu dövlət, ictimai-siyasi sabitliyin və davamlı inkişafın təmin olunduğu ölkə kimi tanınır. Ölkəmizin inkişafının, əldə etdiyi nailiyyətlərin əsasında uğurla, uzaqgörənliklə...



Bax səh. 7

# "Əsrin kontraktı"nın bizim müstəqil tariximizdə xüsusi yeri, xüsusi rolu var

## *Prezident İlham Əliyev "Əsrin müqaviləsi"nin 25 illiyi və Neftçilər Günü münasibətilə keçirilən mərasimdə iştirak edib*

Sentyabrın 20-də Heydər Əliyev Mərkəzində "Əsrin müqaviləsi"nin 25 illiyi və Neftçilər Günü münasibətilə mərasim keçirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimdə iştirak edib.

Dövlətimizin başçısı tədbirdə nitq söyləyib: **"Hörmətli xanımlar və cənablar, əziz dostlar.**

**Bu gün Azərbaycanda çox əlamətdar bir gündür. Bu gün biz Neftçilər Gününü qeyd edirik. Bütün Azərbaycan neftçilərini peşə bayramı münasibətilə ürəkdən təbrik edirəm, onlara yeni uğurlar, yeni qələbələr arzulayıram.**

**Neftçi peşəsi Azərbaycanda həmişə çox hörmətli peşə olub. Bu gün də belədir, sabah da belə olacaq. Azərbaycan neftçiləri ölkəmizin iqtisadi qüdrətinin artırılması istiqamətində çox böyük işlər görüblər, böyük töhfələr veriblər. Bu gün Azərbaycanın neft-qaz sektoru öz yeni inkişaf dövrünü yaşayır.**





## **Prezident İlham Əliyev:** *Bu gün Azərbaycan nefti müstəqil Azərbaycan dövlətinə xidmət göstərir*

**Bildiyiniz kimi, dünyada sənaye üsulu ilə ilk neft məhz Azərbaycanda hasil edilmişdir. Bu gün şəhərimizin mərkəzində dünyanın ilk neft quyusu bir turizm obyekti kimi fəaliyyət göstərir. O gündən bu günə qədər Azərbaycanda böyük həcmdə neft hasil edilmişdir. Bildiyiniz kimi, dəniz yataqlarından da dünya miqyasında ilk neft Azərbaycanda hasil edilmişdir və bu gün biz Azərbaycan neft sənayesinin yeni mərhələsinin şahidiyik.**

**Bu gün Azərbaycan nefti müstəqil Azərbaycan dövlətinə xidmət göstərir. Biz hamımız yaxşı xatırlayırıq ki, "Əsrin kontraktı"nın imzalanması ölkəmizin yeni mərhələyə qədəm qoymasına şərait yaratdı. 1990-cı illərin əvvəllərində gənc müstəqil Azərbaycan dövləti çox böyük çətinliklərlə, çağırışlarla üz-üzə qalmışdı. Ovaxtkı hakimiyyətin səriştəsizliyi, yarıtmaz fəaliyyəti, xəyanətkar addımları ölkəmizi uçurum kənarına qoymuşdu. 1991-1993-cü illər ağır faciəli illər kimi tariximizdə qalacaq. Ölkəmizi böhran bürümüşdü - siyasi, iqtisadi böhran, sənaye iflic vəziyyətdə idi. İqtisadi sahədə yaşanan tənəzzül gənc müstəqil ölkənin inkişafı üçün çox böyük maneələr törədirdi.**

**Azərbaycan xalqı özünə xas müdriklik nümayiş etdirərək 1993-cü ildə Ulu Öndər Heydər Əliyevə üz tutub, Onu hakimiyyətə dəvət etmişdir. O gündən bu günə qədər Azərbaycan sabitlik dövrü yaşayır, Azərbaycan inkişaf yolu ilə gedir. 1993-cü ildən bu günə qədər aparılan islahatlar, görülmüş işlər Azərbaycanı dünya miqyasında uğurla inkişaf edən ölkə kimi tanıdır. O vaxt iqtisadi və siyasi sahədə yaşanan böhran böyük təhlükə mənbəyi idi. Heydər Əliyevin cəsarəti, uzaqgörənliyi, fədakarlığı Azərbaycanı bütün bəlalardan qoruya bilmişdir. Vətəndaş müharibəsinə son qoyuldu, Azərbaycan islahatlar yoluna qədəm qoydu. Müstəqil dövlətin Konstitusiyası qəbul edildi. Qeyri-qanuni silahlı birləşmələr tərk-silah edildi, ölkədə qayda-qanun yaradıldı. Əlbəttə ki, ölkəmizin gələcək inkişafı ilə bağlı ciddi addımlar atılmalı idi və "Əsrin kontraktı"nın imzalanması bu addımlar sırasında xüsusi yer tutur.**

**"Əsrin kontraktı"nın imzalanması tarixi hadisədir. Bu kontraktın faydasını bu gün Azərbaycan dövləti, Azərbaycan xalqı görür. Təsəvvür etmək çətindir ki, əgər "Əsrin kontraktı" imzalanmasaydı, Azərbaycan o vaxt nəyin hesabına öz iqtisadi inkişafını təmin edə bilərdi. Biz nəyin hesabına uğurla inkişaf edə bilərdik. "Əsrin kontraktı"nın bizim müstəqil tariximizdə xüsusi yeri, xüsusi rolu var. Bu kontraktın imzalanması da asan məsələ deyildi. Uzun müddət ərzində aparılan danışıqlar nəticə vermirdi. Əlbəttə, hər iki tərəf çalışırdı ki, özü üçün daha əlverişli və məqbul şərtləri əldə etsin. Hesab edirəm ki, biz "Əsrin kontraktı"nın timsalında beynəlxalq əməkdaşlığın müsbət tərəfini görürük. Çünki həm sərmayə qoyan tərəf - investorlar, həm də ki, Azərbaycan dövləti maraqlar balansını taparaq ən məqbul şərtlərlə özləri üçün bu kontraktı imzaladılar. Əgər investorları kontraktların şərtləri qane etməsə, onda əlbəttə ki, heç bir kontraktın imzalanmasından söhbət gedə bilməz. Eyni zamanda, Azərbaycan dövlətinin maraqları da tam şəkildə təmin edildi. Bu gün kontraktın icrasının nəticəsi olan yeniləşən, müasirləşən, güclənən Azərbaycan bu sözlərimin əyani sübutudur.**

**Mən danışıqların son mərhələsini yaxşı xatırlayıram. Amerikanın Hyuston şəhərində bir aydan çox danışıqlar gedirdi. Bu danışıqlar həlledici rol oynamışdır. Kontraktın qüvvəyə minməsi Azərbaycanı yeni inkişaf yoluna çıxardı və bu gün "Əsrin kontraktı" bizim neft sənayemizin inkişafında öz rolunu oynayır. İki il bundan əvvəl kontraktın müddətinin 2050-ci ilə qədər uzadılması göstərir ki, 1994-cü ildə nə qədər düzgün qərar qəbul edilmişdir.**

**"Əsrin kontraktı" Ulu Öndər Heydər Əliyevin neft strategiyasının tərkib hissəsidir, onun başlanğıcıdır. Məhz Heydər Əliyevin cəsarəti, müdrikliyi sayəsində Azərbaycan özünü dünyaya təqdim edə bildi. Tarixdə ilk dəfə xarici şirkətlər Xəzər dənizində neft-qaz yataqlarının işlənilməsində iştirak etməyə başlamışlar. "Əsrin kontraktı"nın imzalanması nəticəsində on minlərlə yeni iş yeri yaradılmışdır. Azərbaycanda minlərlə şirkət bu kontraktın icrasında podratçı kimi fəaliyyət göstərir. Yəni, "Əsrin kontraktı"nın çox böyük faydası var.**

**Eyni zamanda, o vaxt Azərbaycan dünyada riskli bir ölkə kimi tanınırdı. Ermənistanın ölkəmizin torpaqlarını işğal etməsi, gedən vətəndaş müharibəsi, iqtisadi çətinliklər, bir daha demək istəyirəm ki, Azərbaycanı investisiya üçün əlverişli ölkə kimi təqdim edə bilməzdi. O vaxt Ulu Öndər Heydər Əliyevin xidmətlərindən biri də o olmuşdu ki, investorları inandıra bilmişdi və Dövlət Neft Şirkətinin rəhbərliyi - bizim dostumuz rəhmətlik Natiq Əliyev, Xoşbəxt Yusifzadə, Valeh Ələsgərov, mən və digər əməkdaşlar çalışırdıq investorları inandıraq ki, Azərbaycana sərmayə qoymaq olar, sərmayə qoymaq lazımdır və Azərbaycana bu gün sərmayə qoyan sabah böyük fayda görəcək. Belə də oldu. "Əsrin kontraktı"nın icrasına qoyulmuş sərmayə artıqlaması ilə qaytarıldı. Xarici investorlar milyardlarla dollar gəlir əldə etdilər. Azərbaycan dövləti yüz milyard dollardan çox gəlir əldə etdi.**

**Yəni, bir daha demək istəyirəm ki, bu, dünya təcrübəsində özünə layiqli yer tutan kontraktdır. Çünki həm dövlətin, həm də investorların maraqları təmin olundu. Eyni zamanda, neftdən əldə edilmiş gəlirlər ölkəmizin sürətli inkişafına şərait yaratdı. Biz dünyada neft sənayesində gedən işlərdən xəbərdarıq. Bir çox hallarda neft xoşbəxtlik gətirmir, faciə gətirir, qarşıdurma gətirir, qeyri-bərabərlik gətirir, ədalətsizlik gətirir. Azərbaycanın timsalında neft xeyir gətirib. Çünki neftdən əldə edilmiş gəlirlər ümumi inkişafımıza sərmayə kimi qoyuldu. Sosial məsələlərin həlli üçün şərait yaratdı. Ölkəmizin beynəlxalq mövqelərinin möhkəmləndirilməsi üçün imkan yaratdı. Müasirləşən şəhərlər, abadlaşan kəndlər, ölkədə gedən quruculuq, abadlıq - bütün bunların təməlində bizim neft sənayemiz dayanır.**

**Biz əlbəttə ki, bu gün iqtisadi sahədə şaxələndirmə yolunu seçmişik. Yəni, neftdən asılılığı aşağı salmağa çalışırıq, qeyri-neft sektorunu inkişaf etdiririk. Ancaq bilməliyik ki, bu gün və sabah ölkəmizin aparıcı sektoru neft-qaz sektorudur. Bu gün və sabah ölkəmizin uğurlu inkişafı üçün bizim qəhrəman neftçilərimizin əməyi əvəzolunmazdır. Məhz bizim neftçilərimiz bu gün Azərbaycanın qüdrətini, inkişafını təmin edirlər. Ona görə neft-qaz sektorunun bundan sonra da uğurla inkişafı prioritet məsələlərdən biridir. Mən yenə də bunu ona görə deyirəm ki, biz iqtisadi inkişafla bağlı apardığımız siyasəti təbii olaraq qeyri-neft sektoru üzərində qururuq. Ancaq bilməliyik ki, əgər neft sektoru inkişaf etməsə, bizim qeyri-neft sektorumuz bu gün ölkəmizin tələbatını ödəyə bilməz.**

**"Əsrin kontraktı"nın imzalanmasından sonra xarici şirkətlər anladılar ki, Azərbaycana sərmayə qoymaq olar və sərmayə qoymaq lazımdır. Yaxşı xatırlayıram, bir çox xarici şirkət Azərbaycana üz tutub, təkliflərini irəli sürüb və bizimlə əməkdaşlıq etmək haqqında öz niyyətini ifadə etmişdir. Beləliklə, "Əsrin kontraktı"ndan sonra onlarla kontrakt, 40-a yaxın pay bölgüsü sazişi imzalandı. Düzdür, onların bir hissəsinə xitam verildi. Çünki orada kəşfiyyat işlərində lazımi həcmdə neft-qaz resursları tapılmadı. Ancaq digər layihələr bu gün qüvvədədir və bizim qüdrətimizi daha da artırır. Xüsusilə, "Şahdəniz" qaz-kondensat yatağının işlənilməsini qeyd etmək istərdim. "Şahdəniz" üzrə kontrakt "Əsrin kontraktı"ndan iki il sonra - 1996-cı ildə imzalandı. O vaxt dünya enerji aləmində qaz yataqları o qədər də böyük əhəmiyyət kəsb etmirdi. Bu gün təbii qaz enerji təhlükəsizliyi üçün həlledici məsələdir. Ancaq o vaxt belə deyildi. Ona görə "Şahdəniz" üzrə kontraktın imzalanması da tarixi hadisədir. Bu gün "Şahdəniz" Cənub Qaz Dəhlizinin əsas resurs bazasıdır. "Şahdəniz" qaz-kondensat yatağı dünyanın ən böyük yataqlarından biridir. "Azəri-Çıraq-Günəşli" və "Şahdəniz" yataqları eyni əhəmiyyətə malikdir.**

**Ondan sonra neft-qaz kəmərləri inşa edilməyə başlanmışdır. Bakı-Novorossiysk kəməri yenidən quruldu. Bakı-Supsa kəməri 1999-cu ildə işə salındı. Bakı-Tbilisi-Ceyhan, - hansı ki, Ulu Öndər Heydər Əliyev özü şəxsən bu kəmərin təməlini qoymuşdu, - 2006-cı ildə biz tərəfdən uğurla başa çatdırıldı. 2007-ci ildə Bakı-Tbilisi-Ərzurum qaz kəməri istifadəyə verildi və Azərbaycan öz təbii qazını ixrac etməyə başladı. 2012-ci ildə Azərbaycan və Türkiyə arasında TANAP qaz kəməri üzrə saziş imzalanmışdır. "Şahdəniz" yatağının tam miqyasda işlənilməsi üçün bu hadisənin xüsusi yeri vardır. Keçən il biz böyük təntənə ilə həm TANAP-ı, həm Cənub Qaz Dəhlizini rəsmi şəkildə açdıq və bu gün TANAP uğurla fəaliyyət göstərir.**

**Bütün bunlar bizim tariximizdir. Əlbəttə, bu gün bu məclisdə bir çıxışda neft-qaz sənayesi sahəsində görülmüş bütün işləri sadalamaq qeyri-mümkündür. Buna bəlkə də saatlar, günlər lazımdır. Qazma qurğularının Azərbaycanda tikintisi, on minlərlə Azərbaycan vətəndaşının işlə təmin edilməsi, ölkəmizə gələn gəlirlərdən düzgün istiqamətdə istifadə edilməsi, yəni, bütün bunlar bugünkü reallıqlardır.**

**Bu gün Azərbaycanın uğurlu inkişafı timsalında biz məhz o illərdə atılmış addımların təzahürünü görürük. Görürük ki, Ulu Öndər Heydər Əliyevin bütün başqa xidmətləri ilə bərabər, bu sahədə xalq qarşısında, dövlət qarşısında göstərdiyi xidmətlər ən yüksək qiymətə layiqdir. Biz - Onun davamçıları bu sahədə öz işlərimizi davam etdiririk. Bu gün yeni kontraktlar imzalanır, Azərbaycanın neft-qaz sənayesinə böyük maraq var. Azərbaycan beynəlxalq əməkdaşlıq sahəsində, enerji sahəsində böyük uğurlar əldə edib. Mən fürsətdən istifadə edərək, bizim strateji tərəfdaşımızın - BP şirkətinin fəaliyyətini qeyd etmək istərdim. Bizim əsas strateji layihələrimizdə BP əsas tərəfdaşımızdır. Həm "Azəri-Çıraq-Günəşli" yatağının, həm "Şahdəniz" yatağının işlənilməsində, TANAP-da və yeni imzalanmış digər kontraktlar əsasında bizim əməkdaşlığımız uzunmüddətlidir, artıq 25 il tarixi var. Bu əməkdaşlıq bundan sonra ən azı 25-30 il davam edəcəkdir.**

**Bir məsələni də qeyd etmək istəyirəm. "Əsrin kontraktı"nın ölkəmiz üçün, xalqımız üçün çoxşaxəli faydası var. Ancaq onlardan biri də kadr hazırlığıdır. Xatırlayıram, 1994-cü ildə kontraktın üzərində iş aparılarkən xüsusi qeyd edirdik ki, biz istəyirik kontraktda Azərbaycan vətəndaşlarının işə cəlb olunması məsələsi göstərilsin. Biz istəyirdik ki, bu, bir öhdəlik kimi konsorsiumun şirkətləri üzərinə qoyulsun ki, Azərbaycan mütəxəssisləri tədricən bütün əsas vəzifələrdə işləsinlər və belə də oldu. Əlbəttə ki, birinci illərdə xarici mütəxəssislər çoxluq təşkil edirdi. Ancaq xarici şirkətlər və Azərbaycan tərəfindən aparılmış təlim kursları çox güclü kadr potensialı yaratdı. Mənə verilən məlumata görə, bu gün bu təlimlərdən keçmiş mütəxəssislər BP şirkətinin nəinki Azərbaycanda, bir çox ölkələrdə önəmli layihələrində iştirak edirlər, önəmli vəzifələrdə çalışırlar. Bu gün "Azəri-Çıraq-Günəşli" neft yatağının işlənilməsində çalışanların 90 faizdən çoxu Azərbaycan vətəndaşlarıdır, yəni, bunu biz təmin etdik. Bu, çox böyük sərvətdir. Neft, qaz tükənən sərvətlərdir. İntellektual potensial, bilik, savad, səriştə, təcrübə isə dəyişməz sərvətdir. Bu təlimlərdən keçmiş Azərbaycan vətəndaşları, mütəxəssisləri bu gün çox böyük işlər görürlər, ölkəmizin inkişafına böyük töhfə verirlər. Neftdən əldə edilmiş gəlirlər ölkə iqtisadiyyatının inkişafında istifadə olundu. Biz bunu o istiqamətə yönəltdik. İnfrastruktur tamamilə yeniləndi. Yadınıza salın, 1994-cü ildə bizim infrastrukturumuz nə vəziyyətdə idi, bu gün nə vəziyyətdədir. O vaxt hətta Bakı şəhərinin yarısı təbii qaz ala bilmirdi. Rayonlarda ümumiyyətlə bundan söhbət gedə bilməzdi. Bu gün Azərbaycanda qazlaşdırma 96 faizdir. Biz ən ucqar dağ kəndlərinə qaz xətləri çəkmişik və bu proses davam etdirilir. Mən Dövlət Neft Şirkətinə tapşırıq vermişəm ki, bu işlər dayanmasın. Düzdür, 96 faiz çox böyük rəqəmdir. Nadir hallarda ölkələrdə bu dərəcədə qazlaşdırma aparılır. Amma biz bunu davam etdirməliyik. O illərdə ölkəmizin yarısı işıqsız qalırdı. Bakı şəhərinin özündə işıq çatışmırdı. Hətta bəzi hallarda saat 12-də televiziya kanalları da fəaliyyətini dayandırırdı ki, vətəndaşlar elektrikdən az istifadə etsinlər. Çünki elektrik çatışmırdı. Artıq 3 min meqavata yaxın yeni generasiya gücləri yaradılıb və biz nəinki özümüzü təmin edirik, ixrac da edirik.**

**Yollar bərbad vəziyyətdə idi. Davos Dünya İqtisadi Forumunun hesablamalarına əsasən, bu gün Azərbaycan yolları keyfiyyətinə görə dünya miqyasında 34-cü yerdədir. İçməli su böyük problem idi. Bu gün əhalinin 75 faizi dayanıqlı içməli su ilə təmin edilir və bu proses davam etdirilir.**

**Məcburi köçkünlər üçün yüzdən çox şəhərcik salındı. Çadır şəhərciklərini biz hələ 2007-ci ildə ləğv etdik. Nəyin hesabına? Neft Fondunun hesabına. Neft Fonduna vəsait haradan gəlir? "Əsrin kontraktı"nın icrasından. Biz yüz minlərlə köçkünə yeni evlər verdik, yeni mənzillər təqdim etdik. Şəhid ailələrinə, müharibə veteranlarına edilən güzəştlər, verilən müavinətlər, mənzillər, minik avtomobilləri. Yəni, "Əsrin kontraktı"nın çox böyük faydası var və biz vəsaitdən düzgün istifadə etdik. Neft Fondunun gəlirlərindən yalnız büdcə çərçivəsində istifadə etmək mümkündür. Yəni, Azərbaycan vətəndaşları Milli Məclisdə öz təmsilçiləri vasitəsilə bu vəsaitin bölgüsündə iştirak edirlər.**

**Sosial infrastruktur tamamilə yenidən quruldu, 3200-dən çox məktəb, 640-dan çox xəstəxana tikildi və təmir olundu, idman qurğuları inşa edildi. Azərbaycan kosmik dövlətə çevrildi. Bizim 3 peykimiz var. Biz gəlirlərdən istifadə edərək dövlət borcumuzu aşağı səviyyədə saxlayırıq. Bu, ümumi daxili məhsulun cəmi 19 faizini təşkil edir. Bizim valyuta ehtiyatlarımız xarici borcumuzdan beş dəfə artıqdır. Bu, hansı ölkələrdə ola bilər? Var, amma bu ölkələrin sayı o qədər də çox deyil.**

**"Əsrin kontraktı"nın faydasından çox danışmaq olar. Bundan sonra da neftin satışından əldə ediləcək gəlirlər, ilk növbədə, sosial məsələlərə, infrastruktur layihələrinə, iqtisadiyyatın şaxələndirilməsinə yönəldiləcək ki, Azərbaycanın uzunmüddətli və dayanıqlı inkişafı təmin edilsin.**

**Mən bu gözəl tarix - "Əsrin kontraktı"nın 25 illiyi və Neftçilər Günü münasibətilə bir daha sizi təbrik etmək istəyirəm. Azərbaycan neftçilərinə yeni uğurlar, yeni qələbələr arzulayıram. Sağ olun".**

* * *

Sonra ABŞ-ın Azərbaycandakı səfiri Örl Litzenberqer Birləşmiş Ştatların Dövlət katibi Maykl Pompeonun məktubunu oxuyub.

Böyük Britaniyanın Azərbaycandakı səfiri Ceyms Şarp Birləşmiş Krallığın Beynəlxalq Ticarət Departamentinin Beynəlxalq Ticarət üzrə Dövlət katibi Yelizaveta Trussun və Xarici və Birlik məsələləri ofisinin Avropa və Amerika üzrə naziri Kristofer Pinçerin məktubunu oxuyub.

* * *

BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qəri Counz çıxış edərək deyib: "Zati-aliləri Prezident İlham Əliyev.

Hörmətli qonaqlar, xanımlar və cənablar.

Hər il bu tarixdə biz Neftçilər Gününü qeyd edirik. Bu dəfə bu tarix xüsusi əhəmiyyət daşıyır, belə ki, bu gün həm də "Azəri-Çıraq-Günəşli" (AÇG) layihəsinin 25 illiyini qeyd edirik.

İyirmi beş il bundan əvvəl məhz bu tarixdə haqlı olaraq "Əsrin müqaviləsi" adlandırılmış AÇG üzrə hasilatın pay bölgüsü sazişinin imzalanması ölkənin müasir tarixində yeni səhifə açdı. Ümummilli Lider Heydər Əliyevin sözləri ilə desək: **"Əsrin müqaviləsi"nin imzalanması müstəqil**

davamı 3-cü səhifədə

# “Əsrin kontraktı”nın bizim müstəqil tariximizdə xüsusi yeri, xüsusi rolu var

## *Prezident İlham Əliyev “Əsrin müqaviləsi”nin 25 illiyi və Neftçilər Günü münasibətilə keçirilən mərasimdə iştirak edib*

əvvəli 2-ci səhifədə











Azərbaycanın yeni neft strategiyası və doktrinasının başlanğıcıdır”.

Bu gün biz mərhum Prezident Heydər Əliyevin uzaqgörən siyasətinə əsaslanan strategiyanın möhtəşəm nəticələrinin şahidiyik. “Əsrin müqaviləsi”nin ölkədə misli görünməmiş bir iqtisadi inkişafa yol açması və Azərbaycanı müasir enerji mərkəzinə çevirməsi göz qabağındadır.

Biz AÇG-ni bir öncül hesab edirik. Azərbaycanın dəniz sektoru üzrə imzaladığı ilk hasilatın pay bölgüsü sazişi AÇG yatağı üzrə bağlanıb. AÇG qərb transmilli şirkətlərinin bu vaxtadək keçmiş Sovet İttifaqı ölkələrinə qoyduğu ilk iri investisiyanı ölkəyə gətirib.

Nəhəng və mürəkkəb layihə olan AÇG çərçivəsində dəniz hasilat platformalarını, sualtı boru kəmərlərini, qazma qurğularını, emal terminallarını və ixrac boru kəmərlərini özündə birləşdirən dünya səviyyəli enerji infrastrukturu inşa edilib.

Bu illər ərzində 3,6 milyard barreldən çox neft hasil edilib, 44 milyard kubmetr səmt qazı Azərbaycana çatdırılıb, 3,3 milyard barrel neft Bakı-Tbilisi-Ceyhan boru kəməri ilə nəql edilib, 4300 tankerə yüklənib və dünya bazarlarına göndərilib, 36 milyard ABŞ dolları həcmində kapital investisiya qoyulub, 84 milyon ABŞ dolları həcmində vəsait davamlı inkişaf layihələrinə xərclənib.

Bütün bunlar müstəsna nailiyyətlərdir və biz hamımız bununla qürur duymalıyıq.

Fikrimcə, bu uğur üç aparıcı amilə arxalanır.

Birinci və ən önəmli aparıcı qüvvə, AÇG-nin Azərbaycan üçün əsl milli sərvətə çevrilməsinə töhfə vermiş neftçilərdir.

Tarixən Azərbaycanda görkəmli neft mütəxəssisləri yetişib və illərlə yığılmış bu təcrübəni AÇG layihəsində iştirak edən yeni nəsil yüksək səriştəli yerli neft mütəxəssisləri uğurla davam etdirirlər.

Mən xüsusilə qürur duyuram ki, ixtisaslaşmış kadrlarımızın 90 faizi Azərbaycan vətəndaşlarıdır. Sevindirici haldır ki,- cənab Prezident də bunu qeyd etdi,- onların bir çoxu hazırda BP-nin dünyanın müxtəlif ölkələrindəki ofislərində rəhbər vəzifələrdə işləyir.

İkinci amil, onilliklər ərzində birgə səylərlə ərsəyə gətirdiyimiz dünya səviyyəli bu layihənin uğurla həyata keçirilməsinə imkan yaratmış çoxsaylı tərəflərin nümayiş etdirdiyi əməkdaşlıq və strateji tərəfdaşlıqdır.

AÇG üzrə hasilatın pay bölgüsü sazişi Azərbaycanda AÇG tərəfdaşlarının investisiyaları üçün hüquqi sabitlik və etibarlı müdafiə təmin edən nadir birgə iş mexanizmi formalaşdırıb.

Bütün tərəflərin, xüsusilə də Azərbaycan hökumətinin, göstərdiyi etimad və sarsılmaz inam olmasaydı, bu uğurlar, çətin ki, mümkün olardı. Məhz həmin inam və əməkdaşlıq ruhu bizdə AÇG-nin nailiyyətlərini əl-ələ verərək birlikdə qazanmağa imkan yaradıb.

Ötən 25 il ərzində bizim Azərbaycan hökuməti və SOCAR ilə tərəfdaşlığımız yüksək səviyyədə olub. AÇG-nin bütün tərəfdaşları adından bu layihənin uğurunu təmin edən qətiyyətli dəstəyə və öhdəliyə görə Prezident İlham Əliyevə və Azərbaycan hökumətinə dərin minnətdarlığımı bildirirəm.

Üçüncü amil isə AÇG yatağının işlənməsində və istismarında tətbiq edilən texnologiyalardır.

Sənayedəki ən qabaqcıl texnologiyaların istifadəsi və yerli innovativ həllərin tətbiqi AÇG-ni təhlükəsiz və səmərəli şəkildə həyata keçirməyə, hasilatı maksimuma çatdırmağa və texniki çətinliklərin öhdəsindən gəlməyə imkan verdi. Bundan əlavə, hazırda AÇG BP-nin dünyadakı aktivləri arasında texnologiyaların sınağı və tətbiqi baxımından əsas mərkəz hesab edilir.

AÇG-nin 25 illik tarixi möhtəşəm olmuşdur və biz inanırıq ki, onun gələcəyi də eyni dərəcədə uğurlu olacaq.

İki il bundan əvvəl məhz bu ayda imzalanmış, “Yeni əsrin müqaviləsi” adlandırılan, müddəti uzadılmış AÇG üzrə hasilatın pay bölgüsü sazişi eyni uğurlu gələcək üçün güclü zəmin yaradır.

Növbəti 30 il ərzində biz yeni sərmayələr yatırmaqla, yeni texnologiyalar tətbiq etməklə və hasilatın artırılması istiqamətində yeni birgə səylər göstərməklə AÇG-nin uzunmüddətli işlənmə potensialının reallaşdırılması üçün birgə işimizi davam etdirəcəyik.

Yekunda isə bir çox hallarda mürəkkəb iş mühitində işləyərək öz enerjisi, səriştəsi və əməyi ilə AÇG-nin uğurla gerçəkləşdirilməsinə töhfə vermiş hər kəsə təşəkkürümü bildirmək istəyirəm. Məhz sizin səyləriniz, fədakarlığınız və əzminiz sayəsində Azərbaycanın neft və qaz tarixinə qızıl hərflərlə yazılmış bu əlamətdar tarixi qeyd edirik. Təşəkkür edirəm”.

* * *

Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti Xoşbəxt Yusifzadə çıxış edərək deyib: **“Hörmətli xanımlar və cənablar.**



Sizin hamınızı, ümumiyyətlə, Azərbaycan xalqını bu bayram münasibətilə təbrik edirəm. Çünki bu, təkcə neftçilərin bayramı deyil. Neftçilərin əldə etdiyi nailiyyətlər, ümumiyyətlə, Azərbaycan xalqının əldə etdiyi nailiyyətlərdir. Ona görə də bu bayram doğrudan da gözəl bayramdır.

“Əsrin müqaviləsi”nin iyirmi beş illiyi tamam olur. Bu, sanki 100 ilə bərabər bir vaxtdır. Mən yaşca böyük olduğum üçün istəyirəm Dövlət Neft Şirkətinin bütün kollektivi adından hörmətli Prezidentimiz cənab İlham Əliyevə “Çox sağ olun!” deyim ki, bizim nə qədər işçilərimizi mükafatlandırıb. Bu mükafatları verdiyiniz üçün, cənab Prezident, mən neftçilər adından Sizə təşəkkürümü bildirirəm. Hesab edirəm ki, Sizin bizə məhəbbətinizin nəticəsidir ki, bütün bayramlarda, bütün əlamətdar günlərdə Siz neftçiləri yaddan çıxarmırsınız. Ona görə də Sizə “Çox sağ olun!” deyirəm. Ömrünüz uzun olsun.

Cənab Prezident elə ətraflı danışdı ki, mən bilmirəm nədən danışım. “Əsrin müqaviləsi” birinci gündən gözümün qabağından bir lent kimi gəlib keçir. Mən də gördüklərimdən bir-iki cümlə deyim. Məsələ ondadır ki, bəzən fikirləşirsən ki, “Əsrin müqaviləsi”dir, qol çəkildi, hər şey hamar getdi. Amma mənim gözümün qabağındadır ki, nə qədər əziyyətlər çəkilib. Əsas da bu əziyyəti çəkən, əsas bu işin başında duran hörmətli cənab Prezidentimiz Heydər Əliyev olub. Bu müqavilənin imzalanmasına hamını məhz Heydər Əliyev inandıra bildi. Çünki Heydər Əliyevin nəinki Azərbaycanda, bütün dünyada böyük hörməti var idi. Həm də böyük qətiyyəti var idi. Respublika rəhbərliyinə ikinci dəfə gələndə biz neftçiləri yığdı, neft sənayesi ilə maraqlandı, vəziyyəti aydınlaşdırdı. Belə qərara gəlindi ki, biz hökmən xarici şirkətlərlə bir yerdə işləməliyik. O vaxt aramızda bir çox adamlar var idi, deyirdilər ki, biz özümüz işləyərik. Amma bizim özümüzün işləməyimiz üçün 30-40 il vaxt lazım idi. Cənab Heydər Əliyev vəziyyəti aydınlaşdırandan sonra belə qərara gəldi ki, biz mütləq xarici şirkətləri dəvət etməliyik. Özü də xarici şirkətləri dəvət etməkdə qeyri-adi heç nə yox idi. Bütün böyük dövlətlərin heç biri dənizdə tək işləmir. Çünki bu, çox baha başa gəlir. Ona görə də burada elə qorxulu bir şey yox idi. Buna nail olduq. Danışıqlar başlandı, əvvəlcə Bakıda, ardınca İstanbulda. Sonra biz cənab İlham Əliyevlə birlikdə Hyustona getdik. Orada 45 gün danışıqlar aparıldı. İndi bir cümlə ilə deyilir ki, danışıqlar aparıldı. Amma bilirsiniz də o danışıqlar necə gedirdi. Danışıqlarda bizim o qədər təcrübəmiz yox idi. Amma bizə bütün bu şəraiti yaradan, bütün bu işləri qabağa aparan hörmətli cənab İlham Əliyev oldu. Çünki o, Moskvada Beynəlxalq Münasibətlər İnstitutunu bitirmişdi, dilləri bilirdi. Onları öz dillərində başa salırdı ki, bizim məqsədimiz nədir. Danışıqlar müsbət nəticələndi. Qayıdıb gəldik və sentyabrın 20-də bu müqavilə imzalandı. O çətin vəziyyətdə 7 ölkənin 11 şirkəti bu müqaviləyə imza atdı. Müqavilənin əhəmiyyəti barədə mən də qısaca olaraq bir-iki kəlmə demək istərdim. Siyasi əhəmiyyətinə gəldikdə, bütün dövlətlər, bütün şirkətlər inandılar ki, Azərbaycan sabit ölkədir, burada işləmək olar. Heç təsadüfi deyil ki, ondan sonra 35 müqavilə imzalandı. İkincisi, iqtisadi əhəmiyyətinə gəldikdə, 1997-ci ildə bizim respublikada neft hasilatının səviyyəsi 9 milyon tona düşmüşdü. Bu müqavilənin nəticəsində 2010-cu ildə 11 milyon ton neft hasil olundu. “Azəri-Çıraq-Günəşli”də ötən müddətdə 492 milyon ton neft hasil olunub ki, onun 287 milyon tonu Azərbaycanın mənfəət neftidir. Bu da təxminən 58 faiz təşkil edir. Amma ildən-ilə mənfəət neftinin miqdarı artır. Çünki əvvəllər başqa xərclər də var idi. Elə bu ilin 8 ayını götürsək, “Azəri-Çıraq-Günəşli”dən 18 milyon neft hasil olunub ki, onun 13 milyon tonu Azərbaycanın mənfəət neftidir. Bu isə 73 faiz təşkil edir. Demək istəyirəm ki, Azərbaycanın mənfəət neftinin həcmi ildən-ilə artır. Müqavilənin 30 illik müddəti başa çatırdı, bir yol tapmaq lazım idi. Cənab İlham Əliyevin rəhbərliyi ilə düzgün yol seçildi. Yatağın işlənməsində böyük təcrübəsi olan BP və tərəfdaşları ilə müqavilənin müddətinin 2050-ci ilə qədər uzadılması çox gözəl nəticə oldu. Orada da bizim yaxşı rəqəmlər qalır. Bizim 75 faiz mənfəət neftimiz qalır, 3,6 milyard bonus gəlir. 40 milyard xərcləyiblər, 40 milyard da xərclənəcək. Yenə 500 milyon ton neft hasil ediləcək. Öz tərəfdaşları ilə burada qalan BP, “Azəri-Çıraq-Günəşli”dən başqa digər strukturlarda da iş aparır, fəaliyyətini genişləndirir. Odur ki, Azərbaycan neftinin gələcəyi üçün bunun böyük əhəmiyyəti oldu.

Bir-iki kəlmə də Bakı-Tbilisi-Ceyhan haqqında danışım. Bakı-Tbilisi-Ceyhan da Heydər Əliyev cənablarının uzaqgörənliyini göstərir. O vaxt Ulu Öndər bildi ki, Azərbaycan neftini Bakı-Supsa, Bakı-Novorossiysk kəmərləri ilə xaricə çıxara bilməyəcək. Onda Bakı-Tbilisi-Ceyhan məsələsi ortaya çıxdı. Bu, həm də iqtisadi cəhətdən çox səmərəli idi. Çünki bu kəmər Qara dənizdən yan keçməklə Aralıq dənizinə çıxırdı. Qısaca deyim ki, əgər bu günədək xarici bazarlara 554 milyon ton Azərbaycan nefti çıxarılıbsa, onun təxminən 400 milyon tonu Bakı-Tbilisi-Ceyhanın payına düşür. İndi təsəvvür edin ki, bu kəmər olmasaydı, bu qədər neft xaricə necə çıxacaqdı? Ümumiyyətlə, həyat belədir ki, nə yaxşı iş görürsən gör, bir nəfər tapılıb deyir ki, bu, elə deyil, belədir. Amma həyat sonradan bu məsələlərin düzgünlüyünü göstərdi. İndi buna heç kim heç nə deyə bilməz. Demək olar ki, əgər “Əsrin müqaviləsi” cənab Heydər Əliyevin birinci şah əsəri idisə, Bakı-Tbilisi-Ceyhan ikinci şah əsəridir. Üçüncü şah əsəri də “Şahdəniz”dir. Bunların hamısını cənab Heydər Əliyev başladı. Bunların əsasını qoydu, yaratdı, dünyaya çatdırdı. Cənab İlham Əliyev də bu gün bunların hamısını davam etdirir. İndi əldə etdiyimiz nailiyyətləri danışmaqla qurtarmaq olmaz. Çünki bu 25 ildə çox böyük işlər görülüb. Mən də bir məqalə yazmışam, “100 ilə bərabər olan 25 il”. Cənab İlham Əliyev, Mehriban xanım rayonlara gedəndə görürük ki, nə qədər məktəblər, idman mərkəzləri tikilib, yollar çəkilib. Azərbaycanda 5-10 il olmayan adamlar gələndə ölkəmizin inkişafına heyran qalırlar, çox böyük dəyişikliklər baş verib.

Mən çox danışmaq istəmirəm. Allah Heydər Əliyevə rəhmət eləsin. Allah cənab İlham Əliyevə ailəsi ilə birlikdə uzun ömür versin. Azərbaycanın neftçiləri də öz qarşılarında vəzifə qoyurlar ki, ölkəmiz həmişə birinci yerdə olsun. İndi qeyri-neft sektoru inkişaf edir. Bu çox yaxşı haldır. Amma biz neft sənayesinin işçiləri də gərək elə edək ki, geridə qalmayaq. Əvvəlcədən necə işləmişik, elə də işləyək. Çünki hələ uzun illər bizə neft, qaz lazım olacaq. Odur ki, mən sizin hamınızı bir daha təbrik edirəm. Cənab İlham Əliyevə, onun ailəsinə uzun ömür arzu edirəm ki, respublikanın bayrağını yüksəyə qaldırıb dünyaya tanıdıblar. Elə bu cür də davam etsinlər.

Diqqətinizə görə çox sağ olun”.

* * *

Sonda BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qəri Counz Prezident İlham Əliyevə “Əsrin müqaviləsi”nin 25 illiyi münasibətilə “Azəri-Çıraq-Günəşli” yatağını simvolizə edən markaların toplusunu hədiyyə edib.

# “İlham Əliyev. İnkişaf - məqsədimizdir” çoxcildliyinin 87-ci kitabı çapdan çıxıb




Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ən böyük ədalətsizlikdir. Bu işğal nəticəsində bizim vətəndaşlarımız məcburi köçkün həyatı yaşayırlar. Bütün beynəlxalq hüquq normalarını pozan Ermənistan vəhşilik törədib. Erməni faşizminin yırtıcı sifəti bu münaqişənin nəticələrində özünü büruzə verib. Ancaq Azərbaycan xalqı tam əmindir ki, biz öz ərazi bütövlüyümüzü bərpa edəcəyik, bunu etməliyik. Həm beynəlxalq hüquq, həm də haqq-ədalət bizim tərəfimizdədir. Tarixi həqiqət bizim tərəfimizdədir və güc bizim tərəfimizdədir. Bu gün dünya miqyasında güc amili ön plana çıxır və güclü ölkələr öz istəyinə nail ola bilirlər. Azərbaycan da güclü ölkədir. Güclü ordumuz, güclü iqtisadiyyatımız və düşünülmüş siyasətimiz vardır.

AZƏRTAC xəbər verir ki, “İlham Əliyev. İnkişaf - məqsədimizdir” çoxcildliyinin yenicə çapdan çıxmış 87-ci kitabında yer alan bu fikirlər 2018-ci il mayın 24-də Qaradağ rayonunda məcburi köçkünlər üçün salınmış “Qobu Park” yaşayış kompleksinin açılış mərasimində dövlətimizin başçısının çıxışından götürülüb.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevin buraxılışına məsul olduğu çoxcildliyin növbəti kitabındakı materiallar 2018-ci ilin may-iyun aylarını əhatə edir.

Kitabda Prezident İlham Əliyevin Əskişəhərdə TANAP-Trans-Anadolu qaz kəmərinin istifadəyə verilməsi münasibətilə təntənəli mərasimdə iştirakına, Rusiyaya işgüzar səfəri, habelə Serbiya Prezidentinin Azərbaycana rəsmi səfəri zamanı apardığı danışıqlara, imzalanan sənədlərə dair informasiyalar toplanıb.

Nəşrdə Azərbaycan Prezidentinin Niderland, Fransa, Böyük Britaniya, ABŞ, İran və digər dövlətlərin, Beynəlxalq Əmək Təşkilatı, Beynəlxalq Mülki Müdafiə Təşkilatı və digər nüfuzlu qurumların ölkəmizə gəlmiş yüksəkvəzifəli şəxslərini qəbul etməsi haqqında materiallar da yer alıb.

Azərbaycan Prezidentinin bütün görüş və danışıqlarında Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları və Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həlli yolları prioritet kimi qaldırılıb.

Çoxcildliyin 87-ci kitabına dövlətimizin başçısının Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illik yubileyi münasibətilə təşkil olunmuş qəbulda, Azərbaycan Silahlı Qüvvələrinin 100 illiyi münasibətilə keçirilən təntənəli hərbi paradda, Səngəçal terminalında Cənub Qaz Dəhlizinin rəsmi açılış mərasimində və digər mühüm tədbirlərdə nitq və çıxışlarının mətnləri toplanıb.

Oxucu bu nəşrdə Azərbaycan Prezidentinin “Heydər Əliyev: şəxsiyyət, missiya, irs” tarixi sənədli sərginin, “Qafqazda dövlətlərarası münasibətlər: 100 il əvvəl və müasir dövr” beynəlxalq konfransının iştirakçılarına məktubları və digər rəsmi sənədlər ilə tanış ola bilər.

Prezident İlham Əliyevin Naxçıvan Muxtar Respublikasına, Goranboy rayonuna, Naftalan şəhərinə səfərlərinə, bölgələrdə iqtisadi, sosial, mədəniyyət obyektlərinin açılışlarında iştirakına, ictimaiyyət nümayəndələri ilə görüşlərinə dair materiallar da bu kitaba daxil edilib.

Kitabda “Qeydlər”, “Şəxsi adlar”, “Coğrafi adlar” göstəriciləri verilib.

“Azərnəşr” tərəfindən buraxılan 87-ci kitabın hazırlanmasında Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) materiallarından istifadə olunub.

# Dənizkənarı Milli Parkda Azərbaycanın multikultural dəyərlərinə həsr olunmuş fotosərgi açılıb

Sentyabrın 20-də Dənizkənarı Milli Parkda Azərbaycanın multikultural dəyərlərinə həsr olunmuş “Bir günəş altında” adlı fotosərgi açılıb.

AZƏRTAC xəbər verir ki, sərgi Heydər Əliyev Fondunun dəstəyi, Bakı Media Mərkəzinin təşkilatçılığı ilə reallaşıb.

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva sərginin açılışında iştirak edib.

Bu sərgidə Azərbaycanda yaşayan müxtəlif xalqların nümayəndələrinin Bakı Media Mərkəzinin peşəkar fotoqrafları tərəfindən lentə alınmış fotoşəkilləri təqdim edilir. Sərgidə nümayiş olunan fotoların müəllifləri Bakı Media Mərkəzinin fotoqrafları Vüqar İbadov və Zaur Mirzəyevdir.





Vüqar İbadov fotosərgi ilə bağlı təəssüratlarını jurnalistlərlə bölüşərək deyib: **“Bu, Heydər Əliyev Fondunun dəstəyi ilə Bakı Media Mərkəzinin reallaşdırdığı layihədir. Bu sərgidə yer alan fotoların ərsəyə gəlməsinə bir il vaxt sərf edilib. Biz bu müddət ərzində ölkəmizin bir sıra regionlarında olmuşuq. Demək olar ki, bütün fəsillərdə rayonlarda və ucqar kəndlərdə çəkilişlər aparmışıq. Bu sərgidə həm də biz ölkəmizin tolerant dəyərlərini göstəririk. Fotosərgi bundan əvvəl Fransanın Paris və Kann şəhərlərində Azərbaycan günləri çərçivəsində də təqdim olunub. Bu işin ərsəyə gəlməsində Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevaya təşəkkürümüzü bildiririk”.**

Zaur Mirzəyev layihə ilə bağlı məlumat verərək deyib ki, hələ çəkilişlərə 2016-cı ildən başlanılıb. Ölkəmizdə yaşayan azsaylı xalqlar haqqında ekranlaşdırılan “Bir günəş altında” filminin çəkilişləri zamanı bu layihəyə start verilib. Layihənin məqsədi ölkəmizdə tolerant və multikultural ənənələri çəkib göstərmək, təbliğ etməkdir.

Layihənin reallaşdırılması zamanı filmin lentə alındığı bütün regionlarda fotoçəkilişlər aparılıb, fərqli etnik qruplara aid insanların həyatının bir anı əks olunub.

Fotosərginin təşkil edilməsində məqsəd Azərbaycanda tolerant mühitin formalaşdığını, dinindən, dilindən, milliyyətindən asılı olmayaraq hər kəsin bərabər hüquq və azadlıqlardan istifadə etmək imkanı qazandığını bir daha göstərməkdir.

Qeyd edək ki, Bakı Media Mərkəzi Heydər Əliyev Fondunun dəstəyi ilə 2016-cı ildə Azərbaycanda “Multikulturalizm ili” çərçivəsində “Bir günəş altında” adlı film ərsəyə gətirmiş, filmdə Azərbaycanda yaşayan 17 xalqın nümayəndələrinin həyat və məişətini, mədəniyyət və incəsənətini nümayiş etdirmişdi. Mərkəzin əməkdaşları adıçəkilən layihə çərçivəsində Azərbaycanın müxtəlif bölgələrində 54 kənd və qəsəbənin sakinlərini lentə alıb, Azərbaycan təbiətinin gözəlliyini əks etdirən 3850 mənzərənin, bu gözəl təbiətin qoynunda yaşayan müxtəlif yaşlı, fərqli etnik qruplara aid 2625 insanın fotosunu çəkib.



Sərgidə bu şəkillərin içərisindən seçilən 80 foto nümayiş olunur.

# Amerika Birləşmiş Ştatlarının Dövlət katibi Maykl Pompeo Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə təbrik məktubu göndərib

Amerika Birləşmiş Ştatlarının Dövlət katibi Maykl Pompeo Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə təbrik məktubu göndərib. Məktubda deyilir: **“Hörmətli cənab Prezident.**

**“Əsrin müqaviləsi”nin imzalanmasının 25-ci ildönümü münasibətilə Sizə və Azərbaycan Respublikasının xalqına Amerika Birləşmiş Ştatlarının təbriklərini çatdırmaq istəyirəm.**

**Bu il 25-ci ildönümün qeyd edilməsi Azərbaycanın dünya bazarlarına öz zəngin enerji ehtiyatlarını davamlı şəkildə çatdırdığı vaxta təsadüf edir. Son iyirmi beş il ərzində Birləşmiş Ştatlar öz enerji ehtiyatlarının işlənilməsində, Avropanın və dünyanın enerji təhlükəsizliyinə töhfə verilməsində və müstəqil dövlət kimi öz siyasi xəttinin formalaşdırılmasında Azərbaycanın göstərdiyi səylərdə onun qətiyyətli tərəfdaşı olub. 1994-cü ildə Qərb şirkətləri ilə bu müqaviləni imzalamaqla və Bakı-Tbilisi-Ceyhan boru kəmərini inşa etməklə Azərbaycan dünya bazarlarında əsas neft təchizatçısına çevrildi və ilk dəfə olaraq Xəzər dənizi ilə Aralıq dənizi arasında birbaşa enerji bağlantısı yaratdı.**

**Azərbaycan yenə də təşəbbüskar rolunda çıxış edərək, bu dəfə Cənub Qaz Dəhlizi vasitəsilə təbii qaz ixrac etməklə Avropanın enerji təhlükəsizliyinə strateji əhəmiyyətli töhfə verir. Xəzər Neft və Qaz Sərgisinin 26-cı ildönümü münasibətilə Prezident Tramp öz məktubunda qeyd etdiyi kimi, biz Sizin səylərinizi tam dəstəkləyirik və hesab edirik ki, Azərbaycanın iqtisadi uğuru regionun sabitliyi və çiçəklənməsi üçün əhəmiyyətlidir.**

**Uğurlu enerji əməkdaşlığımız həm iqtisadi işbirliyimizi, həm təhlükəsizlik sahəsində tərəfdaşlığımızı, eləcə də insan hüquqları, fundamental azadlıqlar və demokratik idarəçilik sahəsində davamlı fəaliyyətimizi əhatə edən strateji münasibətlərimizə müsbət töhfə vermişdir.**

**Birləşmiş Ştatlar bütün bu sahələrdə birgə işimizin davam etməsini və dərinləşməsini səmimiyyətlə arzulayır. Bu mühüm tarixi hadisənin ildönümü münasibətilə təbriklərimi qəbul etməyinizi xahiş edirəm”.**

# Azərbaycanın Baş Naziri Ümumçin Xalq Nümayəndələri Yığıncağı Daimi Komitəsi sədrinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb



Azərbaycan Respublikasının Baş Naziri Novruz Məmmədov sentyabrın 20-də Ümumçin Xalq Nümayəndələri Yığıncağı Daimi Komitəsinin sədri Li Canşunun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, Çin Xalq Respublikasının yaranmasının 70 illiyi münasibətilə təbriklərini çatdıran Baş Nazir Novruz Məmmədov Azərbaycanın Çin ilə əməkdaşlığa maraqlı olduğunu bildirərək deyib: **“Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra Çin ilə əlaqələrimizin inkişafı istiqamətində önəmli addımlar atıb. Bu gün ölkələrimiz arasında dostluq və əməkdaşlıq əlaqələri dinamik inkişaf edir”.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Çinə beş dəfə səfər etdiyini xatırladan Novruz Məmmədov bildirib ki, bu səfərlər çərçivəsində Çin Xalq Respublikasının Sədri Si Cinpin və digər rəsmi şəxslərlə səmərəli görüşlər keçirilib, ikitərəfli əlaqələrlə bağlı müzakirələr aparılıb. **“Hesab edirəm ki, son vaxtlar ölkələrimiz arasındakı əməkdaşlıq əlaqələri daha dinamik şəkildə inkişaf etdirilir. Sədr Si Cinpinin təşəbbüsü ilə irəli sürülən “Bir kəmər, bir yol” layihəsi ölkəmiz üçün çox cəlbedicidir. Tarixi İpək Yolunun bərpası Azərbaycan üçün hər zaman aktualdır. Biz hesab edirik ki, bu yol tarixən Azərbaycan və Çin xalqlarını birləşdirən yol olub. Əminəm ki, “Bir kəmər, bir yol” layihəsi də uğurla icra olunacaq. Azərbaycan “Bir kəmər, bir yol” təşəbbüsünü dəstəkləyir və bu istiqamətdə müəyyən addımlar atır”**, - deyə Novruz Məmmədov vurğulayıb.

Azərbaycanın Baş Naziri ölkəmizin təşəbbüsü ilə reallaşdırılan irimiqyaslı layihələr barədə məlumat verərək strateji əhəmiyyətli layihə hesab olunan Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin, həmçinin Bakı Beynəlxalq Dəniz Ticarət Limanının istifadəyə verildiyini qeyd edib. Novruz Məmmədov Azərbaycan ilə Çin arasında əməkdaşlığın daha da genişləndirilməsi üçün geniş potensialın olduğunu diqqətə çatdırıb.

Baş Nazir Azərbaycanın Çin ilə iqtisadi əlaqələrin genişləndirilməsinə xüsusi önəm verdiyini bildirərək deyib ki, sənaye, kənd təsərrüfatı, energetika, turizm və digər sahələrdə əməkdaşlığı daha da gücləndirmək üçün yaxşı imkanlar mövcuddur.

Novruz Məmmədov Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsində ölkəmizin ədalətli mövqeyinə verdiyi dəstəyə görə Çin Xalq Respublikasına minnətdarlığını ifadə edib, Azərbaycanın da “Vahid Çin” prinsipinə hər zaman dəstək verdiyini söyləyib.

Ölkələrimiz arasında əməkdaşlığın davamlı şəkildə inkişaf etdiyini bildirən Li Canşu Çinin Azərbaycan ilə əlaqələrin bütün sahələrdə genişlənməsinə böyük əhəmiyyət verdiyini ifadə edib. **“Bu gün Azərbaycan ilə Çin arasında mövcud olan əməkdaşlıq əlaqələri belə deməyə əsas verir ki, biz iki dost ölkələr kimi daim bir-birimizə etibar edə bilərik”.**

Li Canşu son illər Çin ilə Azərbaycan arasındakı münasibətlərin daha da intensiv xarakter aldığını qeyd edərək qarşılıqlı səfərlərin, aparılan danışıqların əlaqələrimizin inkişafına xidmət etdiyini deyib.

Ümumçin Xalq Nümayəndələri Yığıncağı Daimi Komitəsinin sədri Azərbaycanın tranzit ölkə kimi beynəlxalq yükdaşımaların həyata keçirilməsində etibarlı tərəfdaş olduğunu vurğulayıb, bu sahədə əməkdaşlığın inkişafının zəruriliyini diqqətə çatdırıb.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

# Baş Nazir Novruz Məmmədov: “Əsrin müqaviləsi” dövlət müstəqilliyimizin mühüm təminatına çevrildi

Azərbaycan Respublikasının Baş Naziri Novruz Məmmədov “Əsrin müqaviləsi”nin 25 illiyi ilə bağlı “Twitter” səhifəsində paylaşım edib.


Novruz Məmmədov
@NovruzMammadov
#ƏsrinMüqaviləsi25 #ContractofCentury25

“Əsrin müqaviləsi” müstəqilliyini yenicə qazanan gənc Azərbaycan dövlətinin Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi altında dövlətçiliyimizin əbədiliyinə, sabitliyinə, respublikamızın davamlı inkişafına, beynəlxalq əməkdaşlığa, qlobal və regional təhlükəsizliyə verdiyi böyük töhfə və zəmanətdir.

AZƏRTAC xəbər verir ki, Baş Nazirin paylaşımında deyilir: **“Əsrin müqaviləsi” müstəqilliyini yenicə qazanan gənc Azərbaycan dövlətinin Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə dövlətçiliyimizin əbədiliyinə, sabitliyinə, respublikamızın davamlı inkişafına, beynəlxalq əməkdaşlığa, qlobal və regional təhlükəsizliyə verdiyi böyük töhfə və zəmanətdir.**

**İyirmi beş il əvvəl müstəqil Azərbaycan Respublikası ilə dünyanın tanınmış neft şirkətləri arasında imzalanmış müqavilə məhz öz tarixi, siyasi və beynəlxalq əhəmiyyətinə görə “Əsrin müqaviləsi” adını alıb.**

**Bu tarixi hadisənin baş tutmasında Ulu Öndər Heydər Əliyevin siyasi-diplomatik peşəkarlığı, böyük rəhbər və insan kimi güclü iradəsi həlledici rol oynadı. O, müstəqil Azərbaycanın strateji əməkdaşlığa hazır olduğuna dünyanı inandıra bildi. Eyni zamanda, bu strateji əməkdaşlığın imkanlarından yararlanaraq ölkə iqtisadiyyatının gələcək inkişafını təmin etmək üçün gənc ölkəmizə böyük imkanlar qazandırdı. Bu müqavilə ilə müstəqil dövlətimizin neft strategiyasının əsası qoyuldu.**

**Hesab edirəm ki, bu qlobal layihə Azərbaycanın suveren dövlət kimi öz təbii sərvətlərinə sahib çıxmaq, milli mənafelərini, iqtisadi və strateji maraqlarını müdafiə etmək əzmini bir daha bütün dünyaya göstərdi, dövlət müstəqilliyimizin mühüm təminatına çevrildi.**

**Müqavilənin təşəbbüskarı olan müstəqil Azərbaycan beynəlxalq əməkdaşlığa və regional təhlükəsizliyə də öz töhfəsini vermiş oldu.**

**İyirmi beş illik uğurlu əməkdaşlığa bir daha onu göstərdi ki, 100 il əvvəl Şərqdə ilk demokratik cümhuriyyəti quran, qadınlara ilk dəfə səsvermə hüququ verən, təkrarolunmaz mədəniyyət nümunələri yaradan Azərbaycan xalqı etibarlı tərəfdaşdır və qlobal əhəmiyyətli bu layihənin tərəfdaşlarla birgə icrasını davam etdirmək zəruridir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin uzaqgörən siyasəti sayəsində ölkəmizə misilsiz uğur qazandıran bu müqavilənin müddəti XXI əsrin ortalarına qədər uzadıldı.**

**“Əsrin müqaviləsi”nin imzalanmasından ötən 25 ildə Azərbaycan Respublikası və onun neft-qaz sənayesi əsrə bərabər bir inkişaf yolu keçib. Əminəm ki, müstəqil ölkəmiz bu yolda şərəflə addımlamağa davam edəcək”.**

# Ümumçin Xalq Nümayəndələri Yığıncağı Daimi Komitəsinin sədri Ulu Öndər Heydər Əliyevin məzarını və Şəhidlər xiyabanını ziyarət edib



Azərbaycanda səfərdə olan Ümumçin Xalq Nümayəndələri Yığıncağı Daimi Komitəsinin sədri Li Canşunun başçılıq etdiyi nümayəndə heyəti sentyabrın 20-də Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri, müasir müstəqil dövlətimizin memarı və qurucusu Heydər Əliyevin xatirəsini yad edib, məzarı önünə əklil qoyub.

AZƏRTAC xəbər verir ki, sonra Şəhidlər xiyabanına gələn qonaqlar Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının məzarlarını ziyarət edib, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyublar.

Bakının ən hündür nöqtəsindən Azərbaycan paytaxtının mənzərəsini seyr edən nümayəndə heyətinin üzvlərinə Şəhidlər xiyabanının tarixi və şəhərdə görülən abadlıq-quruculuq işləri barədə məlumat verilib.

# Azərbaycan Çin iqtisadiyyatına 1,7 milyard dollar sərmayə yatırıb



Çin Azərbaycan iqtisadiyyatına 800 milyon ABŞ dollarından çox, Azərbaycan isə Çinə 1,7 milyard dollar investisiya yatırılıb.

AZƏRTAC xəbər verir ki, bu barədə İqtisadiyyat naziri Şahin Mustafayev Ümumçin Xalq Nümayəndələri Yığıncağı Daimi Komitəsinin sədri Li Canşunun Azərbaycana səfəri çərçivəsində "SINOMACH Group"un marketinq direktoru, "China CAMC Engineering" şirkətinin prezidenti Luo Yanın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşündə deyib.

Nazir L.Canşunun Azərbaycana səfərinin mühüm əhəmiyyətini, Azərbaycan-Çin əlaqələrinin davamlı inkişafını diqqətə çatdırıb. Ş.Mustafayev Azərbaycan və Çin dövlət başçıları arasında qarşılıqlı hörmətə və etimada əsaslanan münasibətlərin ölkələrimiz arasında fəal dialoqun əsasını təşkil etdiyini və ikitərəfli əməkdaşlığın genişləndirilməsində mühüm rolunu vurğulayıb. Prezident İlham Əliyevin Çinə səfərləri, bu ilin aprelində Pekində keçirilən II "Bir kəmər, bir yol" Beynəlxalq Əməkdaşlıq Forumunda iştirakı, Çin Xalq Respublikasının sədri Si Cinpinlə görüşü və forum çərçivəsində imzalanan sənədlər əlaqələrin inkişafı baxımından xüsusi əhəmiyyət daşıyır.



**"Azərbaycan Çinlə sənaye, kənd təsərrüfatı, ticarət, turizm, İKT, nəqliyyat-logistika və sair sahələrdə uğurlu əməkdaşlıq edir. Ölkəmizdə 119 Çin kapitallı şirkət fəaliyyət göstərir. Bu ilin birinci yarısında iki ölkə arasında ticarət dövriyyəsi 2,3 dəfə artaraq 1,4 milyard ABŞ dollarından çox olub. Qarşılıqlı investisiya əlaqələrimiz genişlənir. Çindən Azərbaycan iqtisadiyyatına 800 milyon ABŞ dollarından çox, Azərbaycandan isə Çinə 1,7 milyard dollar sərmayə yatırılıb"**, - deyə nazir bildirib.

**"Bununla belə, qarşılıqlı sərmayə qoyuluşları, ticarət dövriyyəsinin artırılması üçün geniş imkanlar mövcuddur və bu istiqamətlərdə davamlı olaraq tədbirlər həyata keçirilir. Hazırda Çində Azərbaycanın 2 şərab və 1 ticarət evi fəaliyyət göstərir. Çində Azərbaycanın daha 3 ticarət və 1 şərab evinin açılması nəzərdə tutulur. Azərbaycan istehsalçıları mütəmadi olaraq Çində keçirilən beynəlxalq sərgilərdə iştirak edir, bu ölkəyə ixrac missiyaları təşkil olunur. Ötən il ölkəmiz Birinci Çin Beynəlxalq İdxal Sərgisində vahid ölkə stendi ilə böyük çeşiddə məhsullarını nümayiş etdirib. Bu il təşkil olunacaq İkinci Çin Beynəlxalq İdxal Sərgisində də Azərbaycan şirkətlərinin iştirakı nəzərdə tutulur. Aparılan işlər Azərbaycan məhsullarının Çində daha çox tanıdılmasına imkan yaradır"**, - deyə Ş.Mustafayev əlavə edib.

Sənaye sahəsində əlaqələrdən danışan nazir "China CAMC Engineering" şirkəti ilə Azərbaycan şirkətləri arasında bu gün imzalanan sənədlərin də uğurlu əməkdaşlığın nəticəsi olduğunu vurğulayıb, bu sənədlərin böyük həcmli investisiya qoyulması, minlərlə yeni iş yerinin yaradılmasına imkan yaratdığını qeyd edib.

"SINOMACH Group"un marketinq direktoru, "China CAMC Engineering" şirkətinin prezidenti L.Yan Azərbaycana səfərindən məmnunluğunu ifadə edib, ölkəsi ilə Azərbaycan arasında siyasi-iqtisadi əlaqələrin yüksək səviyyədə olduğunu vurğulayıb. O qeyd edib ki, Azərbaycandakı əlverişli investisiya mühiti və biznesə yüksək dövlət dəstəyi özəl sektorun inkişafına, investisiya qoyuluşuna geniş imkanlar açır.

Rəhbərlik etdiyi şirkətin fəaliyyət istiqamətləri barədə məlumat verən L.Yan "SINOMACH Group"un "Fortune Global 500" dünyanın ən böyük şirkətlərinin illik reytinqində 250-ci yerdə qərarlaşdığını, sənaye, xüsusilə maşınqayırma, kənd təsərrüfatı və digər sahələrdə böyük təcrübəsinin Azərbaycanda tətbiq etməyə hazır olduğunu qeyd edib.

Görüş çərçivəsində qarşılıqlı investisiyaları cəlb etməklə kənd təsərrüfatı məhsullarının istehsalı, emalı və qablaşdırılması, kənd təsərrüfatı təyinatlı maşın və avadanlıqların istehsalı, logistika və digər xidmət sahələri üzrə Aqrar-Sənaye Parkının yaradılması barədə "Azərbaycan İnvestisiya Şirkəti" ASC ilə "China CAMC Engineering" şirkəti arasında anlaşma memorandumu, Azərbaycanın "AS İnvestment" şirkəti və "China CAMC Engineering" arasında mühəndislik, inşaat və təchizat müqaviləsi, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu (AZPROMO) ilə "China CAMC Engineering" şirkəti arasında əməkdaşlığa dair anlaşma memorandumu imzalanıb.

# Ümumçin Xalq Nümayəndələri Yığıncağı Daimi Komitəsinin nümayəndə heyəti İçərişəhərlə tanış olub



Azərbaycanda səfərdə olan Ümumçin Xalq Nümayəndələri Yığıncağı Daimi Komitəsinin sədri Li Canşunun başçılıq etdiyi nümayəndə heyəti sentyabrın 20-də İçərişəhərlə tanış olub.

AZƏRTAC xəbər verir ki, Qız qalasından başlanan tanışlıq zamanı qonağa Bakının rəmzlərindən biri sayılan abidənin tarixi barədə məlumat verilib. Bildirilib ki, eramızdan əvvəl VII-VI əsrlərdə əsası qoyulmuş Qız qalası XII əsrdə bərpa edilib. Hündürlüyü 28 metr, diametri 16-16,5 metr olan abidə silindr formalı əsl qaladan və cənub tərəfdən ona bitişən iri dayaq tikilidən ibarətdir. Dünya əhəmiyyətli bu abidənin qorunub saxlanması və mövcud görkəmdə gələcək nəsillərə çatdırılması üçün Prezident İlham Əliyevin tapşırıqları əsasında 2009-2013-cü illərdə burada konservasiya işləri aparılıb.

Qız qalasının yaxınlığındakı Sıratağlı dini-memarlıq kompleksinin ərazisindəki daş ekspozisiyanın yenidən təşkili işləri qonağın böyük marağına səbəb olub.

Gəzinti zamanı nümayəndə heyətinin üzvlərinə UNESKO-nun Dünya Mədəni İrsi Siyahısına daxil edilmiş "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu, burada aparılan abadlaşdırma və bərpa işləri barədə məlumat verilib. Qeyd edilib ki, İçərişəhər ərazisində müxtəlif əsrlərə aid nadir tarixi memarlıq abidələri var və bunlar dövlət tərəfindən qorunur.

Qonaqlar təzə bişmiş təndir çörəyinin dadına baxmış və elektromobillərlə İçərişəhərlə tanışlığı davam ediblər.

Daha sonra onlar orta əsr Şərq memarlığının şah əsəri, dünya əhəmiyyətli tarixi-memarlıq abidəsi olan Şirvanşahlar sarayı kompleksi ilə tanış olublar.

Məlumat verilib ki, XV əsrin əvvəllərində inşa olunmuş tarixi abidənin tikililəri İçərişəhərin təpələrindən birinin ən hündür nöqtəsində yerləşir. Abidə Xəzər dənizindən və şəhərin ətrafındakı yüksəkliklərdən aydın görünür. Kompleks bu günədək öz tarixi-memarlıq üstünlüyünü saxlamaqdadır.

İçərişəhərlə tanışlıq Ümumçin Xalq Nümayəndələri Yığıncağı Daimi Komitəsinin nümayəndə heyətində zəngin təəssürat yaradıb.

# Azərbaycan Tacikistanla iqtisadi-ticarət əlaqələrinin genişləndirilməsi istiqamətlərini müzakirə edib



Azərbaycan ilə Tacikistan arasında iqtisadi-ticarət əlaqələrinin genişləndirilməsi istiqamətləri müzakirə olunub.

İqtisadiyyat Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, İqtisadiyyat naziri, Azərbaycan Respublikası və Tacikistan Respublikası arasında ticarət-iqtisadi əməkdaşlıq məsələləri üzrə birgə Hökumətlərarası Komissiyanın həmsədri Şahin Mustafayev Tacikistan Parlamentinin Yuxarı Palatasının vitse-spikeri, Soqd vilayətinin rəhbəri Rəcəb Axmadzodə ilə görüşüb.

Nazir Azərbaycan-Tacikistan əməkdaşlığının qarşılıqlı hörmət, etimad və maraq prinsiplərinə əsaslandığını, dövlət başçılarının qarşılıqlı dostluq münasibətlərinin, yüksək səviyyəli qarşılıqlı səfərlərin, keçirilən görüşlərin əməkdaşlığın inkişafında mühüm rolunu vurğulayıb.

Ş.Mustafayev Azərbaycanda həyata keçirilən islahatlar, münbit biznes və investisiya mühiti, geniş nəqliyyat-tranzit imkanları barədə məlumat verib, ölkələrimiz arasında iqtisadi-ticarət, humanitar və sair sahələrdə əlaqələrin genişləndirilməsi üçün imkanları diqqətə çatdırıb.

Tacikistan Parlamentinin Yuxarı Palatasının vitse-spikeri, Soqd vilayətinin rəhbəri R.Axmadzodə Tacikistan Respublikası Prezidentinin Azərbaycanla əməkdaşlığa böyük önəm verdiyini, dövlət başçılarının qarşılıqlı səfərlərinin əlaqələrin inkişafında xüsusi əhəmiyyətini vurğulayıb. Soqd vilayətinin iqtisadiyyatı barədə məlumat verən R.Axmadzodə Azərbaycanın sürətli sosial-iqtisadi inkişafını, energetika və nəqliyyat-tranzit imkanlarını qeyd edərək, iqtisadi-ticarət əməkdaşlığının genişləndirilməsi istiqamətləri barədə fikirlərini bölüşüb.

Görüşdə sənaye, ticarət, investisiya, nəqliyyat-tranzit, tikinti, kiçik və orta biznes, kənd təsərrüfatı məhsullarının istehsalı və emalı üzrə birgə müəssisələrin yaradılması və sair sahələrdə əməkdaşlığın inkişafına dair müzakirələr aparılıb.

# Kristian Okerhelm: Azərbaycanda bütün dini konfessiya nümayəndələri üçün azad və tolerant mühit yaradılıb

Sentyabrın 20-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı İsveçdə fəaliyyət göstərən "Həyat sözü" beynəlxalq kilsəsinin direktoru Kristian Okerhelm və "Həyat sözü" cəmiyyətinin MDB ölkələri və beynəlxalq xidməti üzrə nümayəndəsi Karl Qustav Severin ilə görüşüb.



DQİDK-nın mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə komitə sədri qonaqlara ölkəmizdəki nümunəvi dövlət-din münasibətləri, dinc birgəyaşayış ənənəsi, tolerantlıq siyasəti, eyni zamanda, dini konfessiyalara göstərilən diqqət və qayğı barədə məlumat verib. Bildirib ki, Azərbaycanda fəaliyyət göstərən dini konfessiyalar arasındakı münasibətlər qarşılıqlı hörmətə və əməkdaşlığa əsaslanır. Prezident İlham Əliyevin Azərbaycanda multikultural dəyərlərin qorunması və tolerant münasibətlərin inkişafı yönündə atdığı addımlar davamlı xarakter daşıyır.

Bu gün Azərbaycanda 24-ü xristian, 8-i yəhudi, 1-i krişna və 2-si bəhai olmaqla 35 qeyri-müsəlman dini icmasının dövlət qeydiyyatına alındığını qeyd edən komitə sədri, eyni zamanda, xristian icmalarının Azərbaycandakı fəaliyyətindən danışıb. Qeyri-islam dini qurumların fəaliyyətinə dövlət tərəfindən hərtərəfli dəstəyin göstərildiyini, icmalara mütəmadi maddi vəsaitlərin ayrıldığını diqqətə çatdıran Mübariz Qurbanlı "Həyat sözü" Xristian dini icması ilə Dövlət Komitəsinin səmərəli və sıx əməkdaşlıq etdiyini vurğulayıb.

Ölkəmizə ilk dəfə 25 il öncə səfər etdiyini deyən "Həyat sözü" beynəlxalq kilsəsinin direktoru Kristian Okerhelm həmin dövrdəki çətinliklərə baxmayaraq, hazırda Azərbaycanın çox dəyişildiyini, uğurlu iqtisadi inkişafa nail olduğunu bildirib. Ulu Öndər Heydər Əliyevlə görüşlərini xüsusi ehtiramla xatırladan qonaq respublikamızda multikultural mühitin qorunması və inkişafı yönündə ardıcıl, məqsədyönlü addımların atılmasını yüksək qiymətləndirib. Azərbaycanda bütün dini konfessiya nümayəndələri üçün yaradılan azad və tolerant mühitə görə məmnunluğunu ifadə edən K.Okerhelm vurğulayıb ki, Azərbaycanın dünyaya əyani nümayiş etdirdiyi birgəyaşayış nümunəsinin kökündə dini azadlıqların təmin edilməsi dayanır.

Kristian Okerhelm "Həyat sözü" xristian dini icmasının Azərbaycanda fəaliyyətə başlamasının 25 ilinin tamam olduğunu bildirib və icmanın bu münasibətlə keçirəcəyi tədbirə komitə rəsmilərini dəvət edib.

Görüşün sonunda qonaqlara DQİDK-nın nəşr etdirdiyi, Azərbaycanda mövcud olan multikulturalizm və tolerantlıq ənənələrindən, eləcə də işğal olunmuş ərazilərimizdə vandalizm hərəkətlərinə məruz qalan tarixi-dini abidələrdən bəhs edən kitablar təqdim olunub.

Qeyd edək ki, kilsə 1983-cü ildən İsveçdə fəaliyyət göstərir və təkcə Skandinaviya ölkələri deyil, bütün dünya üçün mərkəz rolunu oynayır. Kilsədə uşaq bağçaları və xristian məktəbləri, eyni zamanda, Bibliya məktəbi mövcuddur. MDB ölkələrində "Həyat Sözü" Kilsəsinin 200 minə yaxın üzvü və mindən çox kilsəsi var.

# Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Beyləqanda və Xocavənddə sakinlərlə görüşəcək

Mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərlərinin və onların müavinlərinin 2019-cu ilin sentyabr ayında şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı Beyləqan və Xocavənd rayonlarından olan sakinləri qəbul edəcək.

DQİDK-dan AZƏRTAC-a verilən məlumata görə, qəbul sentyabrın 24-də saat 11:00-da Beyləqan rayon Heydər Əliyev Mərkəzində keçiriləcək.

Həmin tarixdə Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı Saatlı rayon Gənclər Mərkəzində Saatlı, İmişli, sədr müavini Gündüz İsmayılov isə Sabirabad rayon Heydər Əliyev Mərkəzində Sabirabad rayon sakinləri ilə görüşəcək. Qəbulların hər ikisi saat 11:00-da başlayacaq.

# Nagif Həmzəyev: Ulu Öndər Heydər Əliyevin neft strategiyası Azərbaycanın daha da güclənməsinə xidmət edib

**"Əsrin müqaviləsi" ilə qoyduğumuz təməl 21-ci əsrdə Azərbaycan xalqının inkişafı, firavan həyatı, müstəqil Azərbaycan dövlətinin suverenliyinin daha da möhkəmlənməsi üçün gözəl imkanlar yaradır və inanıram ki, 21-ci əsr müstəqil Azərbaycan dövləti üçün ən xoşbəxt dövr olacaqdır".**



20-ci əsrdə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin uzaqgörənliklə söylədiyi bu sözlər 25 illik zaman qət edərək bu gün tam təsdiqini tapıb. Ulu Öndərin müdrikliklə, dərin inam və qətiyyətlə, məqsədyönlü, ardıcıl şəkildə həyata keçirdiyi qlobal, genişmiqyaslı və çoxşaxəli iqtisadi siyasət nəticəsində Azərbaycan milli mənafelərini, iqtisadi və strateji maraqlarını müdafiə etmək əzmini bütün dünyaya göstərə bilib.

Dahi şəxsiyyətin uğurlu strategiyası nəticəsində nəinki neft sənayesini əhatə edən sahələr dirçəldi, həm də bütövlükdə ölkə iqtisadiyyatı inkişaf etdi. Hətta neft sənayesinin inkişafı qeyri-neft sektorunun inkişafına da ciddi təsir göstərdi.

1994-cü il sentyabrın 20-də Ulu Öndər Heydər Əliyevin böyük səyləri nəticəsində imzalanan "Əsrin müqaviləsi" müstəqil Azərbaycan iqtisadiyyatının dinamik inkişafının əsasını təşkil etdi, ölkənin iqtisadi inkişaf konsepsiyasını təşkil edən düzgün neft strategiyasının həyata keçirilməsinin parlaq təzahürü oldu. Ən əsası isə, "Əsrin müqaviləsi"nin uğurla həyata keçirilməsi Azərbaycan xalqında parlaq gələcəyə olan ümid hissini artırdı.

Ulu Öndərin "Bizim gördüyümüz bütün işlər Azərbaycanı bir dövlət kimi möhkəmləndirmək, gücləndirmək, onun iqtisadi potensialını artırmaq üçündür" sözləri tarixin sınağından alnıaçıq çıxdı. Ümummilli Lider Heydər Əliyevin başlatdığı neft strategiyası müstəqil Azərbaycanda qüdrətli iqtisadiyyat və çiçəklənən cəmiyyətin qurulması üçün zəmin yaratdı, ölkəmizi dünya iqtisadi sisteminə qoşdu, beynəlxalq aləmdə mövqeyini möhkəmləndirdi, Xəzərin karbohidrogen resurslarının beynəlxalq bazarlara nəqlini reallaşdırdı.

Ulu Öndərin təməlini qoyduğu siyasəti ölkə Prezidenti İlham Əliyev uğurla, layiqincə davam etdirərək Azərbaycanı dünyanın aparıcı dövlətləri ilə bir sıraya yüksəltdi. Son illər ölkəmizin sosial-iqtisadi, mədəni həyatında, əhalinin maddi rifah halının yaxşılaşdırılması istiqamətində əldə etdiyi uğurlar da məhz düşünülmüş fəaliyyətin nəticəsidir.

20-ci əsrdən başlayan Ulu Öndər Heydər Əliyevin neft strategiyası zaman keçdikcə əsas məqsədinə nail olmağa başladı, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan dövlətinin dinamik iqtisadi tərəqqisinə çevrildi. Ölkəmizin beynəlxalq arenada nüfuzunun yüksəlməsinə yol açan "Əsrin müqaviləsi" dünya neft bazarında öz yerini tutmaqla yanaşı Avropanın enerji təhlükəsizliyinin təminatında da iştirak etdi. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, əgər keçmişdə bizim ölkənin təşəbbüsləri regional kontekstdən kənara çıxmırdısa, indi mövqe, addımları və təşəbbüsləri qitənin enerji xəritəsinə mühüm dəyişikliklər gətirir.

Prezident İlham Əliyevin iştirakı ilə müddəti 2049-cu ilədək uzadılan "Əsrin müqaviləsi"ndən gələn böyük gəlirlər sayəsində Azərbaycan bundan sonra da sürətlə və qətiyyətlə inkişaf edərək yeni zir-

# Elmar Məmmədyarov: Macarıstanın Türk əməkdaşlıq təşkilatları ilə sıx münasibətlər qurmaq niyyəti təqdirəlayiqdir



Azərbaycan Respublikası Xarici İşlər naziri Elmar Məmmədyarov Budapeştdə Türk Şurası nümayəndəliyinin açılış mərasimində iştirak edib.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Elmar Məmmədyarov açılış mərasimindəki çıxışında bildirib ki, Macarıstanın Budapeştdə Türk Şurası nümayəndəliyinin təsis edilməsi barədə öhdəliyi ilk olaraq Baş Nazir Viktor Orbanın Türk Şurasının Qırğızıstanın Çolpan-Ata şəhərində keçirilmiş 6-cı Zirvə toplantısında səsləndirdiyi və Türk qardaşlığını vurğulayan çox səmimi ismarışlarında irəli sürüldü. Zirvə görüşü zamanı Macarıstanın təşkilatda müşahidəçi statusu əldə etməsi Türk Şurasının genişləndirilməsi baxımından tarixi bir hadisə oldu. Böyük bir etimadla təsdiq edə bilərik ki, müşahidəçi statusunu aldıqdan qısa müddət sonra Macarıstan Türk Şurası və onun üzv dövlətləri ilə əməkdaşlığı inkişaf etdirmək əzmini nümayiş etdirdi.

Qeyd olunub ki, Macarıstanla Türk Şurasına üzv dövlətlər arasında əməkdaşlıq geniş spektr üzrə uğurla inkişaf etdirilir. Biz əminik ki, nümayəndəlik, bu əməkdaşlığı növbəti səviyyəyə yüksəltmək üçün bir mərkəz kimi xidmət göstərəcək, habelə Türk Şurasının Macarıstanla əlaqələrinin genişləndirilməsinə və Avropa təsisatları və Avropa İttifaqı ilə bağların möhkəmləndirilməsinə imkanlar yaradacaq. Macarıstanın Türk əməkdaşlıq təşkilatları ilə daha sıx münasibətlər qurmaq niyyətini təqdirəlayiq hal hesab edirik və bu niyyət özünü bugünkü gündə açıq şəkildə nümayiş etdirir.

**"Məlum olduğu kimi, Türk Şurasının 7-ci Zirvəsi cari il oktyabrın 15-də Bakıda keçiriləcək və bu hadisəyə ev sahibliyi edəcəyimizdən xüsusi şərəf duyuruq. Biz bu toplantını Türk Şurasının təsis sənədi olan Naxçıvan Sazişinin imzalanmasının 10-cu ildönümünə təsadüf etdiyi üçün xüsusi Zirvə görüşü hesab edirik. Özbəkistanın bu Zirvə görüşündə Türk Şurasının tamhüquqlu üzvü kimi təmsil olunması təşkilatın tarixində növbəti mühüm hadisədir. Biz, həmçinin Macarıstanın Baş Naziri Viktor Orbanı Azərbaycanda görməkdən məmnun olacağıq və bu Baş Nazirin Türk Şurasının zirvə görüşlərində ikinci iştirakı olacaq"**, - deyə nazir vurğulayıb.

Elmar Məmmədyarov qeyd edib ki, Budapeştdə nümayəndəliyin açılması Türk Şurasının fəaliyyətinə müsbət təsir göstərəcək, təşkilatın gələcək inkişafına töhfə verəcək və üzv dövlətlər ilə Macarıstan arasında əməkdaşlığın möhkəmləndirilməsi üçün unikal fürsət təqdim edəcək.

# Deputat: Azərbaycanın MDB-yə daxil olmasını zəruri edən səbəblər vardı

20 sentyabr tarixi həm də 1993-cü ildə Azərbaycanın Müstəqil Dövlətlər Birliyinə (MDB) qoşulması haqqında qərar qəbul etdiyi gündür. Heç şübhəsiz ki, bu, Azərbaycanın ən yeni siyasi tarixində mühüm günlərdən biri kimi yadda qalmışdır.

Trend-in məlumatına görə, bunu Milli Məclisin deputatı, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru Hikmət Babaoğlu deyib.

Onun sözlərinə görə, Azərbaycanın MDB-yə daxil olmasını zəruri edən bir çox səbəblər vardır. Bunlar həm iqtisadi-siyasi, həm də mədəni-humanitar sektorla əlaqəli idi. Çünki Azərbaycanın da aid olduğu vahid siyasi məkanda keçmişdə özünəməxsus ortaq münasibətlər sistemi formalaşmışdı və postsovet məkanında yaranan yeni bir təşkilatlanmada Azərbaycanın iştirak etməməsi onu məhz bu mühüm əlaqələrdən məhrum edə bilərdi.



**"Üstəlik, Azərbaycan 1993-cü ildən sonra çoxvektorlu və praqmatik xarici siyasət həyata keçirməsini müəyyənləşdirmiş, istər Qərblə, istər digər geostrateji rayonlarda yerləşən müstəqil dövlətlərlə öz münasibətlərini milli maraqlarımıza uyğun olaraq tənzimləmə məqsədini qarşısına qoymuşdu. Belə olan halda, heç şübhəsiz ki, MDB ölkələri ilə münasibətlərin də məhz yüksək səviyyədə olması dövlətçilik maraqlarımız baxımından aktual idi"**, - deyə Hikmət Babaoğlu bildirib.

Baş redaktor qeyd edib ki, bütün bunlarla yanaşı, Azərbaycanın qarşısında duran bir sıra problemlər də vardı: **"Onlardan biri Xəzər dənizinin karbohidrogen ehtiyatlarının istismarı idi. Azərbaycanın iqtisadi gələcəyini təmin etmək məqsədilə enerji resurslarının istismarını həyata keçirmək üçün mütləq beynəlxalq müqavilə imzalanmalı idi. Həmin sənəd bir il sonra sentyabrın 20-də imzalandı. Əlbəttə ki, Xəzəryanı ölkələrlə, xüsusilə Rusiya, Qazaxıstan və digər MDB ölkələri ilə münasibətlər yüksək səviyyədə olmasaydı, həm "Əsrin müqaviləsi"nin imzalanmasında, həm də regional inteqrasiya ilə bağlı digər addımların atılmasında çətinlik yarana bilərdi".**

Hikmət Babaoğlu xatırladıb ki, sözügedən qərardan sonra sentyabrın 24-də böyük dövlət xadimi, Ulu Öndər Heydər Əliyevin Moskvaya səfəri, MDB üzvü olan dövlətlərin Dövlət Başçıları Şurasının iclasında iştirakı, orada apardığı danışıqlar Rusiya-Azərbaycan münasibətlərinə yeni dinamizmin gəlməsini, qarşılıqlı etimadın yaranmasını şərtləndirdi. Bu qərar, eyni zamanda, Azərbaycana sosial-iqtisadi və digər sahələrdə öz siyasətini həyata keçirmək üçün yeni imkanlar yaratdı. Millət vəkili qeyd edib ki, Azərbaycan bu gün yaxın keçmişimizdə qəbul etdiyi həm bu, həm də digər düzgün tarixi qərarlar sayəsində regionun və bütövlükdə Avropa siyasi coğrafiyasının ən mühüm aktorlarından birinə çevrilibdir.

# Budapeştdə Türk Şurasının Xarici İşlər Nazirləri Şurasının növbədənkənar iclası keçirilib



Azərbaycan Respublikası Xarici İşlər naziri Elmar Məmmədyarov Budapeştdə Türk Şurasının Xarici İşlər Nazirləri Şurasının növbədənkənar iclasında iştirak edib.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Xarici İşlər naziri Elmar Məmmədyarov iclasda çıxış edərək ilk dəfə olaraq Budapeştdə keçirilən Türk Şurası Xarici İşlər Nazirləri Şurasının növbədənkənar iclasında iştirak etməkdən məmnunluğunu ifadə edərək deyib: **"Bu görüşdən sonra Macarıstanın Baş Naziri Viktor Orbanın Türk Şurasının Qırğızıstanın Çolpan-Ata şəhərində keçirilən sonuncu Zirvə görüşü zamanı irəli sürdüyü təşəbbüsünə əsasən təşkilatın Budapeştdə nümayəndəliyinin açılış mərasimi olacaq. Bu təşəbbüs və Türk Şurasında müşahidəçi statusu Macarıstanın Türk Əməkdaşlıq Təşkilatları və üzv ölkələri ilə yaxın və hərtərəfli münasibətlər qurmaq qətiyyətini nümayiş etdirir.**

**Türk Şurasının Avropanın ürəyində - Budapeştdə nümayəndəlik ofisinin açılması böyük bir hadisədir və Avropada Türk dünyasının baxışını təqdim edən məhz Macarıstan olacaq.**

**Əminik ki, bu ofis yalnız Macarıstan və üzv dövlətlər arasında davam edən əməkdaşlığın dərəcəsinin artırılması deyil, eyni zamanda, Türk Şurasının Macarıstanla əlaqələrinin genişləndirilməsi mexanizmi kimi xidmət edəcək, həmçinin Avropa institutları və Avropa İttifaqı ilə əlaqələrin möhkəmləndirilməsində müstəsna rol oynayacaq.**

**Bu yaxınlarda Türk Şurasının Yüksək səviyyəli Məmurlar komitəsinin iclasında müzakirə olunan və nümayəndəliyin hüquqi əsasını təşkil edən "Ev sahibi ölkə Sazişi" və digər əlavə sənədlərə gəlincə, ümid edirik ki, bu sənədlər tezliklə qəbul ediləcək.**

**Ötən Zirvə görüşündən bəri media və informasiya məsələlərinə məsul olan nazirlərin toplantısı, Naxçıvanda Birinci Gənc Liderlər Forumu, Özbəkistan, Türkmənistan və Macarıstandan da diplomatların qatıldığı Gənc Diplomatların 6-cı Birgə Təlim Proqramı Azərbaycanda keçirilib.**

**Məlum olduğu kimi, Türk Şurasının 7-ci Zirvə toplantısı cari il oktyabrın 15-də Bakıda keçiriləcək. Fürsətdən istifadə edərək, 7-ci Zirvə görüşünə ev sahibliyi edəcəyimizdən böyük şərəf duyduğumuzu vurğulamaq istərdim, çünki bu toplantının Türk Şurasının yaradılması haqqında Naxçıvan Sazişinin imzalanmasının 10-cu ildönümünə təsadüf etməsini xüsusi hadisə hesab edirik. Həmçinin Özbəkistan Respublikasının 7-ci Zirvə görüşündə Türk Şurasının tamhüquqlu üzvü olmaq qərarı, eləcə də Zirvə ərəfəsində Macarıstanda nümayəndəliyin açılması diqqətəlayiq hadisələrdir.**

**İnanıram ki, bu hadisələr Türk Şurasının doğru yolda olduğunun göstəricisidir, Özbəkistan və Macarıstan təşkilatın tədbirlərində iştirak edən sonuncu ölkələr olmayacaq".**

# ADU-nun rektoru Polis Akademiyasının nümayəndə heyəti ilə görüşüb



Sentyabrın 20-də Azərbaycan Dillər Universitetinin (ADU) rektoru, akademik, Xalq yazıçısı Kamal Abdulla Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin xüsusi təyinatlı təhsil müəssisəsi olan Polis Akademiyasının rəisi, polis general-mayoru, hüquq üzrə elmlər doktoru Nazim Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

ADU-nun rektoru Kamal Abdulla qonaqları universitetdə görməkdən məmnun olduğunu bildirib. Rektor qarşılıqlı əlaqələrin yaradılması üçün göstərilən təşəbbüsü yüksək qiymətləndirib: **"Hesab edirəm ki, Azərbaycan ali məktəbləri arasında bu cür münasibət qurmaq son dərəcə vacibdir. Biz də əl-ələ verib Azərbaycan naminə görülən işlərə öz töhfəmizi verməliyik. Mənə elə gəlir ki, həm bizim tələbələrimizin sizin müəllimlərin və mütəxəssislərin mühazirələrinə, məşğələlərinə, həm də Polis Akademiyasının tələbələrinin də bizim müəllimlərin məsləhətlərinə ehtiyacı var. Universitetimizdə bir sıra ölkələrin dil və mədəniyyət mərkəzləri fəaliyyət göstərir ki, biz onların yalnız burada yaradılması ilə kifayətlənmək istəmədik. Yaradılan mərkəzin işi həmin ölkənin mədəniyyəti, dili, tarixini burada təbliğ etməkdir. Bu istiqamətdə tələbə qəbul olunur, cürbəcür tədbirlər keçirilir. Hazırda bizim məqsədimiz həmin ölkələrdə də Azərbaycan mədəniyyətinin təbliğini təşkil etməkdir. Serbiyanın Belqrad Universitetində, Hindistanda, Çində, Rusiyada, Gürcüstanda Azərbaycan dili və mədəniyyəti mərkəzləri var. Digər ölkələrlə də danışıqlar aparılır. Əsas məsələ odur ki, onların bu gün Azərbaycanı öyrənməyə həvəsləri, maraqları var. Bu da Azərbaycanın bugünkü durumunun, inkişafının, ölkə Prezidentinin apardığı siyasətin, polis işçilərinin Azərbaycanda olan bu rifahın keşiyində doğru-düzgün, mətinliklə durmasının nəticəsidir. Ona görə də mən güman edirəm ki, sizin xarici dil həvəsinizi və arzunuzu yerinə yetirmək işində sizə köməklik göstərə bilərik, sizin mütəxəssislərin universitetimizdə vaxtaşırı mühazirə oxumalarını təşkil edə bilərik. Mənə elə gəlir ki, ideyalarımız bir-birini tamamlayacaq".**

Polis Akademiyasının rəisi, polis general-mayoru, hüquq üzrə elmlər doktoru Nazim Əliyev səmimi qəbula görə təşəkkürünü bildirib. N.Əliyev Akademiyanın tarixi, fəaliyyəti, strukturu və xidmətləri haqqında məlumat verib: **"Bu gün ölkə başçımız da Öz çıxışlarında deyir ki, ictimai sabitliyin olmadığı yerdə iqtisadi inkişafdan söhbət gedə bilməz. Azərbaycanda bugünkü sabitliyi qoruyan hüquq-mühafizə orqanlarının ən fəalı polisdir. Ona görə də biz yalnız elmə malik məzun yox, Azərbaycan vətəndaşına xidmət edəcək, dövlətimizi, gələcəyimizi, doğmalarımızı qoruyacaq mütəxəssislər yetişdiririk. Bu gün Azərbaycanın bütün regionlarında beynəlxalq tədbirlər keçirilir, xarici qonaqlar səfər edir. Dil biliyi ünsiyyət zamanı mütləq lazımdır. Biz də qarşımıza məqsəd qoyduq ki, hər bir məzunumuz ingilis dilini bilməlidir. Ona görə də sizinlə əməkdaşlıq etmək qərarına gəldik".**

Görüşdə gələcək perspektivlər, birgə mühazirələrin, konfransların, layihələrin keçirilməsi haqqında fikir mübadilələri aparılıb.

# YAP Nəsimi rayon təşkilatı "Xəzər dostluq, inkişaf və sülh rəmzidir" adlı tədbir keçirib





Dünən Yeni Azərbaycan Partiyası (YAP) Nəsimi rayon təşkilatının "Əsrin müqaviləsi"nin imzalanmasının 25 illiyinə həsr edilmiş "Xəzər dostluq, inkişaf və sülh rəmzidir" adlı tədbiri baş tutub. Görüş Dənizkənarı Bulvar İdarəsinin dəniz gəzintisi üçün nəzərdə tutulan "Mirvari" gəmisində təşkil edilib.

YAP Nəsimi rayon təşkilatının sədri, Milli Məclisin deputatı Məlahət İbrahimqızı çıxış edərək "Əsrin müqaviləsi"nin tarixi əhəmiyyətindən danışıb. Vurğulayıb ki, bu müqavilə ilə Azərbaycan öz müstəqilliyini möhkəmləndirib və sonrakı illərdə ölkəmiz regionun lider ölkəsinə çevrilib. M.İbrahimqızı bildirib ki, "Əsrin müqaviləsi" çox mürəkkəb və çətin bir dövrdə imzalanıb. Bu müqavilənin imzalanması cəsarət və qətiyyət tələb edirdi. Çünki Azərbaycanda o dövrdə çox çətin geosiyasi mühit mövcud idi. Lakin Ulu Öndər Öz həyatını xalqımız və dövlətimiz üçün təhlükələrə ataraq bu tarixi müqavilənin imzalanmasına nail oldu. Bu müqavilənin icrası ilə Azərbaycan dövləti yeni inkişaf imkanları qazandı.

Həmçinin tədbirdə iştirak edən AMEA-nın müxbir üzvü, texnika elmləri doktoru, professor Tulparxan Salavatov bildirib ki, Azərbaycanın bugünkü reallıqları "Əsrin müqaviləsi"nin iqtisadi və siyasi əhəmiyyətinin aydın mənzərəsini yaradır.

**Müşfiqə BAYRAMLI**

# YAP Şəmkir rayon təşkilatında ərazi ilk partiya təşkilat sədrlərinin iştirakı ilə seminar-müşavirə keçirilib

Yeni Azərbaycan Partiyası (YAP) Şəmkir rayon təşkilatında ərazi ilk partiya təşkilat sədrlərinin iştirakı ilə seminar-müşavirə keçirilib. YAP Şəmkir rayon təşkilatının sədri Fəxrəddin Vəliyev çıxış edərək cari ilin dekabr ayında ölkəmizdə növbəti bələdiyyə seçkilərinin keçiriləcəyini deyərək partiyamızın bu siyasi kampaniyaya ciddi şəkildə hazırlaşdığını diqqətə çatdırıb. O, YAP Şəmkir rayon təşkilatında seçki qərargahının yaradıldığını və bu işlərdə ilk partiya təşkilatlarının səfərbər olunmasının vacibliyini bildirib. F.Vəliyev seçki məntəqələrində məşvərətçi və müşahidəçilərin seçilməsi istiqamətində işlərə başlanıldığını qeyd edib.



Namizədlərin müəyyən olunmasında partiya sıralarında xüsusi fəallıq göstərən gənclərə və qadınlara üstünlük veriləcəyini vurğulayan F.Vəliyev çıxışında bu ilin əvvəlindən Prezident İlham Əliyevin müvafiq Fərman və sərəncamları ilə ölkəmizdə əmakhaqlarının, təqaüdlərin, sosial müavinətlərin və digər sosial ödənişlərin əhəmiyyətli dərəcədə artırılması, ölkəmizdə qayğıya ehtiyacı olan insanlara dövlətimiz tərəfindən lazımi diqqət və qayğı göstərilməsi barədə də danışıb. O deyib ki, Azərbaycanın bu uğurları qazanmasının əsasında dayanan amillərdən biri də sabitlikdir. Azərbaycanın inkişafını və güclənməsini istəməyən qüvvələrin olduğunu deyən YAP Şəmkir rayon təşkilatının sədri həmin dairələrin müxtəlif vasitələrlə ölkəmizə qarşı qarayaxma kampaniyası apardıqlarını qeyd edib. Ona görə də partiyamızın üzvləri Azərbaycanın qazandığı nailiyyətləri insanlar arasında geniş təbliğ etmək işini fəal şəkildə davam etdirməlidirlər.

# Azərbaycan xalqı Prezident İlham Əliyevin həyata keçirdiyi siyasəti dəstəkləyir

*Ekspertlərin də qeyd etdikləri kimi, xalqımız dövlətimizin başçısının rəhbərliyi ilə həyata keçirilən siyasətə alternativ görmür, əldə olunan uğurları yüksək qiymətləndirir*



Azərbaycan beynəlxalq müstəvidə güclü və nüfuzlu dövlət, ictimai-siyasi sabitliyin və davamlı inkişafın təmin olunduğu ölkə kimi tanınır. Ölkəmizin inkişafının, əldə etdiyi nailiyyətlərin əsasında uğurla, uzaqgörənliklə reallaşdırılan praqmatik daxili və xarici siyasət kursu dayanır. Milli inkişaf modelinin uğurla tətbiq olunması və hədəflənən nəticələrin əldə olunması, siyasi, hüquqi və sosial-iqtisadi islahatların davamlı olaraq həyata keçirilməsi, ölkəmizin beynəlxalq münasibətlər sisteminin nüfuz və güc iyerarxiyasında sürətlə irəliləməsi və digər nailiyyətlər müasir müstəqil Azərbaycanın gerçəkliklərini təşkil edir. Bütövlükdə, Prezident İlham Əliyevin həyata keçirdiyi məqsədyönlü, prinsipial, milli maraqlara əsaslanan siyasət nəticəsində Azərbaycan güclü, dinamik inkişaf edən, yüksək beynəlxalq nüfuza malik dövlətə çevrilib.

Bütün bunların nəticəsidir ki, Azərbaycan xalqı Prezident İlham Əliyevin həyata keçirdiyi siyasəti dəstəkləyir, bu siyasətə alternativ görmür, əldə olunan uğurları yüksək qiymətləndirir. Təsadüfi deyil ki, ictimai rəyin öyrənilməsi üzrə müxtəlif sosioloji tədqiqat mərkəzlərinin Azərbaycan əhalisi arasında keçirdiyi sorğular da ölkəmizdə vətəndaşların Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətə mütləq inam və etimad bəslədiklərini, xalq-iqtidar birliyinin sarsılmaz təməllərə söykəndiyini göstərir.



***Sahibə Qafarova:*** *Prezident İlham Əliyev daim dövlətin mənafeyini - milli maraqları rəhbər tutur, Öz fəaliyyətində xalqın dəstəyinə arxalanır*

Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədr müavini Sahibə Qafarova deyib ki, Azərbaycan dinamik inkişaf yolunda əmin addımlarla irəliləyir, ölkəmizdə etibarlı sabitlik və təhlükəsizlik mühiti hökm sürür: **"Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu siyasəti uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən strateji kurs Azərbaycanın iqtisadi qüdrətinin artmasını, beynəlxalq mövqeyinin möhkəmlənməsini təmin edib, ölkəmizin qarşısında yeni perspektivlər açılıb".**

Azərbaycanın sosial-iqtisadi inkişaf strategiyasının ölkənin davamlı tərəqqisinə xidmət etdiyini deyən millət vəkili əlavə edib ki, ölkəmizdə dövlət siyasətinin çox mühüm tərkib hissəsini sosial siyasət təşkil edir: **"Azərbaycanda səmərəli sosial siyasət həyata keçirilir, vətəndaşlar yüksək dövlət qayğısı ilə əhatə olunublar. Bu istiqamətdə mütəmadi olaraq Fərman və sərəncamlar imzalanır, müvafiq qərarlar qəbul olunur. Prezident İlham Əliyevin sosial sahə ilə bağlı inqilabi qərarları hər bir vətəndaşın və bütövlükdə cəmiyyətin rifahını təmin edir".**

**"Bununla yanaşı, Azərbaycan dünya siyasi arenasında çox mühüm nailiyyətlərə imza atıb, ikitərəfli və çoxtərəfli münasibətlərini uğurla inkişaf etdirib, mühüm transmilli enerji və nəqliyyat layihələrinin gerçəkləşdirilməsinə nail olub. Bütövlükdə, beynəlxalq aləmdə böyük nüfuz qazanan Azərbaycan regionun aparıcı dövlətinə çevrilib",** - deyə S.Qafarova vurğulayıb.

Millət vəkili bildirib ki, Prezident İlham Əliyev daim dövlətin mənafeyini - milli maraqları rəhbər tutur, Öz fəaliyyətində xalqın dəstəyinə arxalanır: **"Prezident İlham Əliyevin gördüyü bütün işlərin əsasında Azərbaycanın dövlət maraqları, ölkənin inkişafı, təhlükəsizliyinin və xalqın firavan həyatının təmin edilməsi amili dayanır. Bütün bunların məntiqi nəticəsi kimi, Azərbaycan xalqı Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasəti dəstəkləyir, bu siyasətin inkişafa, firavan gələcəyə xidmət etdiyini əminliklə bildirir".**



***Aydın Hüseynov:*** *Uğurlu daxili və xarici siyasət Azərbaycanın möhtəşəm nailiyyətlər qazanmasını təmin edib*

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, Milli Məclisin deputatı Aydın Hüseynov isə bildirib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu daxili və xarici siyasət Azərbaycanın möhtəşəm nailiyyətlər qazanmasını təmin edib: **"Prezident İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi dövrdə sosial-iqtisadi infrastruktur müasir tələblərə uyğun yenidən qurulub, iqtisadiyyat şaxələndirilib və qeyri-neft sektorunda güclü potensial formalaşdırılıb. Eyni zamanda, dinamik tərəqqi Azərbaycanın bölgələrini də əhatə edib, regionların sosial-iqtisadi inkişafı davamlı xarakter alıb. Respublikamızda regionların sosial-iqtisadi inkişafına dair əvvəlki iki Dövlət Proqramı kimi, 2014-2018-ci illəri əhatə edən sayca üçüncü proqramın da icrası yüksək səviyyədə təmin olunub və qəbul edilmiş dördüncü Dövlət Proqramı çərçivəsində müəyyən olunmuş işlər müvəffəqiyyətlə davam etdirilir".**

**"Bütün bunlar isə, şübhəsiz ki, ölkəmizdə sosial-iqtisadi inkişafın davamlı xarakter daşıdığını göstərir. Bunlara paralel olaraq əhalinin sosial təminatı sahəsində inqilabi nəticələr əldə olunub, insanların həyat şəraitinin yaxşılaşdırılması - rifah halının yüksəldilməsi istiqamətində kompleks tədbirlər həyata keçirilib. Sabitliyin və təhlükəsizliyin təmin edildiyi Azərbaycanda insan kapitalının inkişafı, xalqın mədəni və milli-mənəvi irsinin qorunub saxlanması istiqamətində görülən tədbirlər də səmərəli nəticələr verib. Qazanılan nailiyyətlər Prezident İlham Əliyevin yürütdüyü uğurlu siyasətin nəticələridir",** - deyə millət vəkili əlavə edib.

**Nurlan QƏLƏNDƏRLİ**

# Vügar Rəhimzadə: MDB-yə üzvlük Azərbaycana geosiyasi məsələlərdə bir çox üstünlüklər qazandırıb



**"AXC-Müsavat hakimiyyətinin ən böyük siyasi səhvlərindən biri o idi ki, potensialına və gücünə uyğun olmayan bəyanatlar verirdi. Məsələn, Təbrizlə, Dağıstanla, Uyğurla bağlı çox gülünc iddialar səsləndirirdilər və bununla da dünyanı Azərbaycana qarşı çevirirdilər. Elə Sovet imperiyası dağıldıqdan sonra yaradılmış Müstəqil Dövlətlər Birliyinə (MDB) daxil olmamaqla da Azərbaycanı postsovet məkanındakı proseslərdən təcrid edirdilər, küncə sıxışdırırdılar".**

Bu fikirləri Trend-ə açıqlamasında "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə deyib.

V.Rəhimzadə bildirib ki, 1992-ci ildə Azərbaycanın xarici siyasəti iflic vəziyyətdə idi. Lakin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdan Ulu Öndər Heydər Əliyev qısa zamanda Azərbaycanın balanslı xarici siyasət konsepsiyasını formalaşdırdı və reallaşdırdı: **"O zamankı hakimiyyətin xarici siyasətdə buraxdığı bir sıra səhvlər milli dövlətçiliyimizi böyük təhlükə qarşısında qoymuşdu. Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra ölkənin milli mənafelərinin qorunmasına yönələn mühüm addımlar atıldı. İlk növbədə, müstəqil Azərbaycan dövlətinin beynəlxalq münasibətlər sistemində yeri, Qərbə inteqrasiya və Rusiya, türkdilli dövlətlər, müsəlman dünyası ilə əlaqələrinin yaxın dövr üçün prioritetləri, istiqamətləri, aparıcı strategiyası müəyyənləşdirildi. Bununla da müstəqil Azərbaycan balanslı və çoxvektorlu xarici siyasət yürütməyə başladı".**

Azərbaycanın Müstəqil Dövlətlər Birliyinə daxil olmasının siyasi əhəmiyyətindən danışan baş redaktor qeyd edib ki, Ulu Öndər Heydər Əliyev Cənubi Qafqaza ən böyük təsir imkanlarının Rusiyada olduğunu nəzərə alaraq Özünün ilk səfərlərindən birini məhz bu ölkəyə etmişdi: **"O zaman paralel olaraq ölkənin MDB-yə daxil olmasına start verilmişdi. Birliyə daxil olmaq isə Rusiya ilə münasibətlərin daha da yaxşılaşdırılması demək idi. Ulu Öndər Heydər Əliyevin Moskvaya səfəri Rusiya ilə olan gərgin münasibətlərimizi xeyli yumşaltdı və onlara yeni çalarlar qatdı".**

**"Azərbaycan Respublikası Milli Məclisi 21 dekabr 1991-ci ildə Azərbaycan, Ermənistan, Moldova, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkmənistan, Tacikistan, Rusiya, Ukrayna, Belarus arasında imzalanmış sazişi yalnız və yalnız 24 sentyabr 1993-cü il tarixində ratifikasiya etdi. Bununla da rəsmi Bakı MDB çərçivəsində Ermənistanın antiazərbaycan siyasətini sıxışdırmış oldu"** deyən Vüqar Rəhimzadə əlavə edib ki, hələ o zaman bəzi qüvvələr Azərbaycanın MDB-yə üzvlüyünü təhlükəli bir hal kimi qələmə verirdilər: **"Lakin zaman göstərdi ki, əksinə, rəsmi Bakı MDB-yə üzv olmaqla xarici vektorlar arasındakı duruma tarazlıq gətirərək ölkəmizin müstəqilliyinin qorunmasını, onun gələcək inkişafını təmin etməyi bacardı. MDB-yə üzvlük sadaladığımız geosiyasi amillərlə yanaşı, iqtisadiyyat, humanitar, mədəniyyət kimi sahələrdə də Azərbaycana yeni dividendlər qazandırdı. Bu gün Azərbaycan da daxil olmaqla MDB-yə üzv olan dövlətlərin birlikdaxili fəaliyyətləri müstəqil dövlətlərin könüllü və bərabərhüquqlu əsasda yaratdıqları hökumətlərarası qurum olduğunu və həmin ölkələr arasında iqtisadi, siyasi, sosial, mədəni əməkdaşlığa şərait yaradan bir subyekt rolunu icra etdiyini təsdiqləyir.**

**Azərbaycan bir sıra təşkilatlarda olduğu kimi, MDB çərçivəsində də aktiv fəaliyyətlə məşğuldur və qurumun yaratdığı perspektivlərdən yararlanmaqdadır. Azərbaycan Ermənistandan başqa MDB-yə üzv hər bir dövlətlə səmimi dostluğa və qarşılıqlı maraqlara əsaslanan ikitərəfli münasibətlərə malikdir ki, bu da Ermənistanın bu platforma daxilində imicinə zərbə vuran böyük amil kimi çıxış edir. Təsadüfi deyil ki, bu gün MDB-nin üzvü olan Belarus və Qazaxıstan liderləri açıq-aşkar şəkildə Ermənistan qarşısında sərgilədikləri sərt mövqelərini rəsmi Yerevanın işğalçılıq siyasəti ilə əlaqələndirirlər".**

"İki sahil" qəzetinin baş redaktoru diqqətə çatdırıb ki, Azərbaycanın MDB kimi təşkilata üzv olması ölkəmizin iqtisadi perspektivlərinin önünün açılmasına səbəb olmuşdur: **"Yaddan çıxarmaq olmaz ki, Azərbaycan MDB-yə daxil olmaqla bağlı sənədi ratifikasiya etdikdən düz bir il sonra sentyabrın 20-si "Əsrin müqaviləsi"nin imzalanmasına nail oldu. Əgər MDB-yə daxil olmasaydıq və Rusiya ilə gərgin münasibətlərdə qalsaydıq, perspektivi bəlli olmayan yola girə bilərdik. Bir sözlə, Birliyə üzvlük tariximiz bu illər ərzində göstəmiş oldu ki, 26 il əvvəl sentyabrın 20-də Azərbaycan xarici vektorda mühüm dəyişikliklər edərək gələcək uğurların əsaslarından birini qoyub".**

# "Bizim həyət" layihəsi çərçivəsində daha bir həyət abadlaşdırılıb









Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən, təmirsiz həyətlərin abadlaşdırılmasına yönəlmiş "Bizim həyət" layihəsi uğurla davam edir.

AZƏRTAC xəbər verir ki, sentyabrın 20-də "Bizim həyət" layihəsi çərçivəsində abadlaşdırılan növbəti həyət sakinlərin istifadəsinə verilib. Yenilənmiş həyət Yasamal rayonu, Yeni Yasamal qəsəbəsi, 2-ci massiv ünvanında 1400 nəfər sakinin yaşadığı iki 10 bloklu binanı əhatə edir.

"Bizim həyət" layihəsinin əsas məqsədi Bakı həyətlərinin ekoloji cəhətdən təmiz və abad edilməsi, şəhər ekologiyasının sütununu təşkil edən yaşıllıqların bərpası, sağlam həyat tərzinin formalaşdırılması, sakinlər üçün təhlükəsiz və rahat yaşam şəraitinin yaradılmasıdır.

Abadlaşdırılan növbəti həyətdə əlil və sağlamlıq imkanları məhdud olan insanların rahat hərəkəti nəzərə alınıb, bütün yaş qrupları üzrə uşaqların inkişafı üçün əlverişli şəraitin yaradılması, gənclərin asudə vaxtlarının səmərəli keçirmələri və onlarda sistematik idmanla məşğulolma refleksinin yaradılması məqsədilə süni örtüklü mini futbol meydançası, şahmat meydançası, müxtəlif idman qurğuları, uşaq meydançası salınıb, 100 metr uzunluğunda velosiped yolu çəkilib. Eyni zamanda, ərazidə 4 söhbətgah inşa edilib, çoxsaylı oturacaqlar, tullantılar üçün qutular quraşdırılıb.

Sakinlərin istək və maraqları nəzərə alınaraq, həyətdə yeni işıqlandırma dirəkləri quraşdırılıb, binaların fasadları və giriş hissələri tam təmir olunub, bloklara yeni dəmir qapılar və plastik pəncərələr quraşdırılıb. Həyətin ərazisindəki mövcud yaşıllıqların bərpası ilə yanaşı, əlavə olaraq 50 ədəd ağac və kollar əkilib və 160 kvadratmetr ərazidə yaşıllıq zolağı salınıb. Həmçinin sakinlərin təhlükəsizliyinin təmin edilməsi məqsədilə ərazidə müşahidə kameraları quraşdırılıb.

Yasamal rayonunda sakinlərin istifadəsinə verilmiş həyət layihə çərçivəsində abadlaşdırılan otuz birinci həyətdir.

Sözügedən layihənin Bakının bütün rayonlarında həyata keçirilməsi nəzərdə tutulur. Bununla əlaqədar, paytaxtımızın abadlaşdırılmaya ehtiyacı olan həyətləri haqqında məlumat və tövsiyələrin IDEA İctimai Birliyinə təqdim edilməsi xahiş olunur.

# Sosial-iqtisadi böhran və hökumətdəki istefalar Nikol Paşinyanın sonunu yaxınlaşdırır

*Ermənistan baş nazirinin qeyri-real vədləri və absurd bəyanatları isə sadəcə vaxt qazanmağa xidmət edir*



Ermənistanda sosial-iqtisadi baxımdan heç bir irəliləyiş əldə edilməməsi cəmiyyətdə ciddi narazılıq yaradır. İşğalçı ölkənin baş naziri Nikol Paşinyan isə problemləri aradan qaldırmaq əvəzinə kütlənin emosiyalarına hesablanan populist xarakterli hərbi-siyasi açıqlamaları və müəmmalı gedişləri ilə vaxt qazanmaq məqsədi güdür. Onun işğal olunmuş ərazilərə səfər edərək özünütəkzib bəyanatları səsləndirməsi, bu günlərdə isə gözlənilmədən güc strukturları rəhbərlərini istefaya göndərməsini bu qəbildən hesab etmək olar.

Yerli mənbələrin iddiasına görə, N.Paşinyanın hökumət üzvlərindən heç kimlə müzakirə etmədən gözlənilməz qərarlar qəbul etməsi hakimiyyətdəki qüvvələr tərəfindən də birmənalı qarşılanmır. Mühüm postlardan hesab edilən təhlükəsizlik və hüquq-mühafizə orqanları rəhbərlərinin müəmmalı şəkildə istefası da bunu deməyə əsas verir. "News.am" saytının yazdığına görə, "Vətəndaş müqaviləsi" partiyasının idarə heyətinin iclasında iştirak etmək üçün partiyanın qərargahına gələn N.Paşinyan və parlamentin sədri Ararat Mirzoyan jurnalistlərin son daxili siyasi hadisələrlə bağlı suallarını cavabsız qoyublar.

Baş nazir təhlükəsizlik və polis xidmətləri rəislərinin vəzifələrini müvafiq olaraq müavinləri Eduard Martirosyan və Arman Sarkisyana həvalə etsə də, güc strukturları rəhbərlərinin istefaları yerli mətbuatda müxtəlif şəkildə dəyərləndirilir. Mütəxəssislərin qənətinə görə, ölkədəki dərin sosial-iqtisadi problemlər fonunda N.Paşinyan qarşısına istənilən yolla öz hakimiyyətini qorumaq məqsədini qoyub. Ekspertlərin qənaətinə görə, keçmiş prezident Robert Köçəryanın həbsi, "Amulsar" yatağının istismarı ətrafında proseslərin intensivləşməsi, Cermuk sakinləri tərəfindən bununla əlaqədar narazılıqların artması fonunda N.Paşinyan keçmiş hakimiyyətdən qalan bu şəxsləri azad etməklə özünü dövlət çevrilişindən qorumaq istəyib. İddialara görə, öz mövqeyini möhkəmləndirmək üçün Paşinyan hakimiyyətə nüfuz edən bütün "şübhəli elementlər"dən xilas olmağa və özünün istənilən əmrini yerinə yetirməyə hazır olan kadrlara ehtiyac duyur.

Güc strukturları rəhbərlərinin işdən çıxarılmasına baxmayaraq, Paşinyan hələ də fors-major vəziyyətlərdən, o cümlədən Ermənistanın ağır iqtisadi durumunun və maliyyə çatışmazlığının doğurduğu sosial partlayışdan yüz faiz sığortalana bilmir. Çünki eyforiya dövrü artıq keçib və indi xalq ölkə üçün aktual olan məsələlərin həllində Paşinyan komandası üzvlərinin səriştəsizliyini görür.

Buna görə də, demək olar ki, hər gün Ermənistan hökumətinin əleyhinə aksiyalar təşkil olunur. Hökumət binasının qarşısında növbəti gərgin vəziyyət hərbi xidmətdə dünyasını dəyişən hərbçi yaxınlarının etiraz aksiyası səbəbindən yaranıb. "Aysor" saytı yazır ki, "Zinvor" ("Əsgər") ictimai təşkilatının təşəbbüsü ilə keçirilən aksiyada ölən hərbçilərin yaxınları 1 mart 2008-ci il hadisələri nəticəsində ölənlərin ailələrinə hökumət tərəfindən ayrılmış kompensasiyanın onlara da şamil olunmasını tələb edirlər.

"Joxovurd" qəzeti isə yazır ki, Ermənistanda yüksəkvəzifəli şəxslərin istefaları davam edəcək. Nəşrin məlumatına görə, əvvəlcə baş nazirin müavini Mqer Qriqoryan, xarici işlər naziri Zohrab Mnatsakanyan və Ermənistanın müdafiə naziri David Tonoyan vəzifələrini tərk edəcəklər: **"Fövqəladə hallar naziri Feliks Çolakyan və "Amulsar"ın istismar ediləcəyini söyləyən ekologiya naziri Erik Qriqoryan, habelə Maliyyə Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi və Dövlət Gəlirlər Komitəsinin rəhbərlərinin adları da bu sırada çəkilir".**

Qəzet yazır ki, N.Paşinyan ABŞ-a səfərindən sonra sosial blokun nazirlərini də vəzifələrindən azad etmək niyyətindədir. Söhbət səhiyyə naziri Arsen Torosyan, eləcə də əmək və sosial işlər naziri Zaruhi Batoyandan gedir.

Təbii ki, müəmmalı qalan və davametmə ehtimalı çox olan bu istefalar dalğası yaxın aylarda da N.Paşinyana yaxşı heç nə vəd vermir. Çünki yerli ekspertlərin verdiyi məlumata görə, onsuz da nüfuzunu itirən baş nazirin o vaxta qədər reytinqi 20%-dən aşağı olacaq.

Mövcud hökumətin fəaliyyəti ilə bağlı növbəti maraqlı faktı isə "Hraparak" qəzeti ortaya atıb. Qəzet yazır ki, Ermənistanda bu gün bütün idarəetmə sistemi "Facebook"da oturur: **"Həm baş nazir, həm parlamentin spikeri, nazirlərin hamısı, demək olar ki, "Facebook"da yaşayırlar. Hətta sosial şəbəkələrdə reytinq monitorinqləri aparılır və onun nəticələri baş nazir N.Paşinyana təqdim edilir. Bu günlərdə müxalifətin nümayəndəsi E.Şarmazanov da mövcud hökumətin fəaliyyətini dəyərləndirərkən oxşar iradları səsləndirib".**

Göründüyü kimi, Ermənistanda təsadüfən hakimiyyətə gələn N.Paşinyanın təkcə xarici siyasətdə deyil, daxildə də fəaliyyətsizliyi, onun müxtəlif üsullara əl ataraq orijinal görünmək cəhdləri uğur vəd etmir. Paşinyan hər an yaxınlaşan fəlakətin qarşısını almağa çalışır, amma sosial-iqtisadi sahədə ciddi dəyişikliklər etmədən istənilən addım vaxt qazanmaq niyyəti güddüyü üçün mövcud vəziyyəti daha da ağırlaşdıracaq.

**Qaşqay ZİYƏDDİNOĞLU**

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**Məqalə KİVDF-nin maliyyə dəstəyi ilə “Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi” istiqaməti üzrə həyata keçirilən layihə çərçivəsində hazırlanmışdır**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

# Regionlarda meyvəçiliyin inkişafı istiqamətində çoxşaxəli tədbirlər görülür

## *Bu ilin 8 ayında ölkədən 364 min 958 ton meyvə-tərəvəz ixrac olunub*



v(əvvəli ötən sayımızda)

Quba Regional Aqrar Elm və İnnovasiyalar Mərkəzinin direktor müavini Mədət Qurbanov isə bildirib ki, əksər bağbanlar yüksəkkeyfiyyətli, yerli bazarla yanaşı, xarici ölkələrdə satıla biləcək məhsul yetişdirməyi bacarıblar. Quba alması daha çox qonşu Rusiya Federasiyasının müxtəlif şəhərlərindəki satış mərkəzlərinə ixrac olunur. Keyfiyyəti nisbətən aşağı olan meyvə isə Quba və Xaçmaz rayonlarındakı emal müəssisələrinə təhvil verilir. Hazırda bağbanlar almanın bir kiloqramını keyfiyyətindən asılı olaraq 50-60 qəpiyə satırlar.

Məhsuldarlıq daha çox intensiv və superintensiv alma bağlarında müşahidə olunur. Müasir suvarma üsulunun tətbiqi və yeni növlərin ənənəvi bağlara nisbətən daha məhsuldar olması bağbanların bu sahəyə marağını artırıb. Toplanan məhsul ilkin mərhələdə elə bağlardaca çeşidlənərək qablaşdırılır. Bundan sonra meyvə fermerlərə məxsus xüsusi saxlanclara və rayonda fəaliyyət göstərən soyuducu anbarlara yığılır. Toplanan meyvənin müəyyən hissəsi satış üçün yerli və paytaxt bazarlarına, eləcə də respublikamızın digər bölgələrinə göndərilir.

Bağ sahəsi çox olan sahibkarlar meyvənin itkisiz yığılması üçün təsərrüfatlarına əlavə işçi qüvvəsi də cəlb edirlər. Rayon bağlarında alma yığımı oktyabrın sonlarınadək davam edəcək. Qubada 13 min 484 hektar alma bağı var ki, bunun da 11 min hektara yaxını intensiv və superintensiv bağlardır. Ötən il rayonun alma bağlarından 125 min 418 ton məhsul toplanıb.

### ARAN RAYONLARINDA MEYVƏ YIĞIMI DAVAM EDİR

Neftçalada təsərrüfatın digər sahələri ilə yanaşı, bağçılığın inkişafına da xüsusi diqqət yetirilir. Dövlətin aqrar sektorun inkişafı ilə bağlı məhsul istehsalçılarına göstərdiyi hərtərəfli dəstəkdən yararlanan bağbanlar ötən il rayonda mövcud olan 591,7 hektar çoxillik meyvə bağlarından 1849 ton meyvə tədarük ediblər. Bağbanlar cari ildə də meyvə sahələrindən bol məhsul götürmək üçün bütün texniki tədbirləri vaxtında və nümunəvi şəkildə həyata keçiriblər. Bunun nəticəsində də bağlarda məhsul çox olub.

Rayon statistika idarəsindən bildiriblər ki, xeyli vaxtdır neftçalalı bağbanlar yetişdirdikləri məhsulun yığımını aparırlar. Bağbanlar 8 ayda ağaclardan 802,9 ton meyvə yığıblar. Tədarük olunan meyvənin 119,3 tonu alma, 57,8 tonu armud, 59 tonu ərik, 11 tonu albalı, 27,1 tonu şaftalı, 229 tonu gavalı, 166,5 tonu alça, 26,3 tonu gilas, 91,1 tonu isə digər meyvələrdir. Rayonda meyvə yığımı davam edir.

Saatlı rayonunda da meyvə yığımı davam edir. Ötən il bağlardan 3000 ton məhsul toplayan saatlılı bağbanlar cari ildə də bol məhsul yetişdiriblər. Rayon Statistika İdarəsindən bildiriblər ki, məhsul yığımına mütəşəkkil başlayan bağbanlar cari ilin ötən səkkiz ayında rayonda mövcud olan 2 min 381 hektar meyvə bağından 3 min 762,1 ton məhsul toplayıblar.

İmişli rayonunda da bağçılığın inkişafına xüsusi diqqət yetirilir. Dövlətin aqrar sektorun inkişafı ilə bağlı məhsul istehsalçılarına göstərdiyi hərtərəfli dəstəkdən yararlanan bağbanlar ötən il rayonda mövcud olan 784 hektar bağdan 3 min ton meyvə tədarük ediblər. Bağbanlar cari ildə də bağlardan bol məhsul götürmək üçün ağaclara nümunəvi qulluq göstəriblər. Bunun nəticəsində də bol məhsul yetişib.

Rayon Statistika İdarəsindən bildiriblər ki, bu mövsüm bağlardan 3 min 274,3 ton meyvə yığılıb. Bu da ötən ilin eyni dövrü ilə müqayisədə 22,8 ton çoxdur. Tədarük olunan meyvənin 685 tonunu alma, 569,9 tonunu armud, 188,3 tonunu ərik, 421,5 tonunu albalı, 336,9 tonunu şaftalı, 551,2 tonunu gavalı, 620,5 tonunu alça, 82 tonunu gilas, 19 tonunu isə digər meyvələr təşkil edib. Hazırda bağbanlar nar və heyva bağlarında yetişdirdikləri məhsulun yığımına hazırlıq görürlər. Yaxın vaxtlarda bu bağlarda da meyvə tədarükünə başlanılacaq.

Yeri gəlmişkən qeyd edək ki, dövlətin əldə edilən məhsulun bazarlara çıxarılması yönündə dəstəyi artıq öz töhfəsini verməkdədir. Belə ki, iqtisadiyyat naziri Şahin Mustafayev bu günlərdə Azərbaycandan Rusiyaya meyvə-tərəvəz ixracının iki dəfəyədək artırılması ehtimalından bəhs edib: **“Bu, Azərbaycan-Rusiya Hökumətlərarası Komissiyası çərçivəsində aparılan təhlil və hər iki tərəfin qənaətidir. Eyni zamanda, Azərbaycan iqtisadiyyatının potensialı və Rusiya bazarının imkanları baxımından mümkün hesab olunur. Ötən il Azərbaycan istehsalçıları Rusiyaya 555 min ton meyvə-tərəvəz ixrac ediblər. Düşünürük ki, bu potensial ixracı 2 dəfə artırmağa imkan verir. Bu rəqəmi 1 milyon tona çatdırmaq olar. Yekaterinburq vilayətində logistik mərkəzin yaradılması bu göstəricilərin reallaşdırılması istiqamətində yaradılan layihə olacaq”.**

Dövlət Gömrük Komitəsinin yaydığı məlumata görə isə bu ilin 8 ayında ölkədən 364 min 958 ton meyvə-tərəvəz ixrac olunub. Hesabat dövründə ixrac edilən meyvə-tərəvəzin dəyəri 361 milyon 730 min ABŞ dolları olub. Xatırladaq ki, ötən ilin müvafiq dövründə 315 milyon 838 min dollarlıq 340 min 993 ton meyvə-tərəvəz ixrac edilib.

### PAYIZ MÖVSÜMÜNDƏ NAXÇIVANDA YENİ MEYVƏ BAĞLARI SALINACAQ

Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyində keçirilən müşavirədə bu barədə müvafiq tapşırıqlar verilib. Həmin tapşırqlara əsasən, bu ilin payız mövsümündə muxtar respublikada həyata keçiriləcək yaşıllaşdırma və yeni meyvə bağlarının salınması, ötənilki əkinlərdə bərpa işlərinin planlı aparılması üçün sentyabr ayının sonunadək ərazilərin sxem-planları hazırlanacaq, ting ehtiyatı müəyyənləşdiriləcək.

Muxtar respublikanın ekologiya və təbii sərvətlər naziri Mais Əliyev çıxış edərək vurğulayıb ki, yuxarıda qeyd edilən məsələlərin həlli üçün texnika, maşın və mexanizmlər saz vəziyyətə gətirilməli, əkin işlərinin keyfiyyətinin yüksəldilməsi məqsədilə rayonlaşdırma işləri həyata keçirilməli, torpaqların münbitliyinin artırılması tədbirləri diqqət mərkəzində saxlanılmalıdır.

**“Nazirliyin digər qurumları Xüsusi mühafizə olunan təbiət əraziləri şöbəsi ilə birlikdə toxum tədarükünü ciddi nəzarətdə saxlamalı, dağlıq və meşə fondu ərazilərində toxumla əkin işlərinin aparılmasına üstünlük verilməli, yaşıllıq sahələrində qurumuş ağacların təmizlənməsi və hərbi hissələrə verilməsi işi davam etdirilməlidir”,** - deyən nazir vurğulayıb ki, adıçəkilən şöbə və aidiyyəti idarələr, o cümlədən digər idarə və müəssisələr qış mövsümündə biotexniki tədbirlərin icra edilməsi üçün vaxtında qida ehtiyatı yaratmalı, lazım olan ərazilərdə anbarlaşdırılmalıdır. Biotexniki tədbirlərin xüsusi mühafizə olunan təbiət əraziləri ilə yanaşı, onlara həmsərhəd ərazilərdə, yeni salınmış yaşıllıq sahələrində keçirilməsinə də ciddi önəm verilməlidir.

Diqqətə çatdırılıb ki, Bioloji mühit və təbii sərvətlərdən istifadənin təşkili şöbəsi tərəfindən yay-qış otlaq sahələrində ekoloji monitorinqlər aparılmalı, ətraf mühitin mühafizəsi qanunvericiliyinin tələblərinə uyğun olaraq tədbirlər icra edilməlidir. Yaylaq mövsümü başa çatdıqdan sonra oba ərazilərində təmizlik yaradılması diqqətdə saxlanılmalı və qaşarlarda dezinfeksiya işləri təşkil edilməli, xüsusilə qış otlaq sahələrində təsərrüfat fəaliyyətinin tənzimlənməsi üçün müvafiq tədbirlər həyata keçirilməlidir.

Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyindən bildirilib ki, əhalinin etibarlı ərzaq təminatı ilin bütün dövrlərində, xüsusən soyuq qış aylarında vacib məsələlərdəndir. Bu baxımdan Naxçıvan Muxtar Respublikasında daxili bazarın yüksəkkeyfiyyətli ərzaq məhsulları ilə təmin olunması üçün görülən tədbirlər sırasında soyuducu anbar komplekslərinin yaradılması mühüm əhəmiyyət daşıyır.

Belə ki, soyuducu anbarlar məhsul tədarükü mövsümündə təzə meyvə-tərəvəzin münasib qiymətlərlə alınıb, payız-qış mövsümündə bazara çıxarılması üçün nəzərdə tutulmuş mühüm infrastruktur obyektləridir. Qiymətlərin əhalinin istehlak qabiliyyətinə uyğun saxlanılması və bazarda keyfiyyətli yerli məhsullara üstünlük verilməsi baxımından da soyuducu anbarlara diqqət böyükdür. Buna görə də hər il muxtar respublikada fəaliyyət göstərən soyuducu anbarlara məhsul tədarük olunması diqqətdə saxlanılıb və satışa çıxarılan məhsulların həcmində də artım olub.

### ZAQATALADA MEYVƏ FESTİVALI KEÇİRİLƏCƏK

Sentyabrın 28-də Zaqatala rayonunda Beynəlxalq fındıq, qoz, şabalıd festivalı keçiriləcək. Zaqatala rayon İcra Hakimiyyətinin təşkilatçılığı, Mədəniyyət və Kənd Təsərrüfatı nazirliklərinin dəstəyi ilə reallaşacaq festivalda fındıq, qoz və şabalıddan hazırlanmış geniş çeşiddə məhsullar nümayiş etdiriləcək, müxtəlif müsabiqələr, yarışlar təşkil olunacaq.

Festivala hazırlıq üzrə təşkilat komitəsinin üzvü, rayon İcra Hakimiyyəti başçısının müavini Vəfa Süleymanova bildirib ki, tədbirdə ölkəmizdə fəaliyyət göstərən 10-dan artıq xarici ölkə səfirliyinin rəhbər və təmsilçiləri, nazirlik və dövlət qurumlarının nümayəndələri, Milli Məclisin deputatları, fındıq istehsalçıları və ixracatçıları, həmçinin rayon sakinləri iştirak edəcəklər. Üçüncü dəfədir keçiriləcək festivalın əsas məqsədi ölkəmizin, eləcə də Zaqatala rayonunun iqtisadi, mədəni və turizm potensialını daha geniş nümayiş etdirməkdir.

Festivalın rəsmi açılış mərasimi Zaqatala şəhərindəki “Dədə Qorqud” meydanında olacaq. Burada kənd həyatına aid bölmə, qərzəkli meyvələrin satış yarmarkası fəaliyyət göstərəcək, sənətkarların əl işləri və milli mətbəx nümunələri sərgilənəcək. Müxtəlif müsabiqələrin - ən gözəl fındıq, qoz, şabalıd xonçası, qərzəkli meyvələrdən hazırlanmış əl işi, ən yaxşı məlumat lövhəsi, ən gözəl fındıq geyimi və digər yarışların keçirilməsi nəzərdə tutulur. Festival iştirakçıları fındıq qabığı ilə sobanın yandırılması, fındığın və şabalıdın qovrulması prosesini əyani şəkildə izləyəcək, fındıq emalı və ixracı ilə məşğul olan müəssisələrin istehsal etdiyi məhsullarla tanış olacaqlar.

**Qaşqay RAMAZANOV**

# “İki sahil” qəzeti Neftçilər Gününə həsr olunmuş xüsusi buraxılış hazırlayıb




Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsində, iqtisadi qüdrətinin artmasında, dünya iqtisadi sisteminə inteqrasiyasında və dünya birliyində layiqli yer tutmasında əhəmiyyətli rol oynayan, tarixə “Əsrin müqaviləsi” kimi daxil olan neft sazişinin imzalanmasından 25 il keçir. “İki sahil” qəzetinin Neftçilər Gününə həsr olunmuş 80 səhifəlik xüsusi buraxılışında Azərbaycan neft-qaz sənayesinin 25 ildə keçdiyi inkişaf yolunun təhlili aparılıb, Ulu Öndər Heydər Əliyevin müəllifi olduğu neft strategiyasının uğurla həyata keçirilməsinə davamlı töhfələr verən SOCAR-ın və onun strukturlarının gördüyü işləri əks etdirən maraqlı yazılar dərc edilib, rəngli şəkillər və yüksək poliqrafik tərtibat xüsusi diqqət çəkir.

Neft strategiyasının uğurla həyata keçirilməsində neftçilərin əməyi dövlətimiz tərəfindən hər zaman yüksək dəyərləndirilib. Məhz Ulu Öndər Heydər Əliyevin 16 avqust 2001-ci il tarixli Fərmanı ilə Neftçilər Gününün təsis edilməsi, hər il 20 sentyabr ərəfəsində neçə-neçə qabaqcıl neftçinin yüksək dövlət mükafatları ilə təltif edilməsi neftçilərin əməyinə verilən qiymətin, onlara göstərilən diqqətin bariz nümunəsidir. Xüsusi buraxılışda dövlət başçısı İlham Əliyevin 19 sentyabr 2019-ci il tarixli müvafiq sərəncamları yer alıb. Eyni zamanda, “Əsrin müqaviləsi”nin uğurları rəqəmlərin dili ilə təqdim edilib.

Xüsusi buraxılışda neft və qaz sənayesinin inkişafında xüsusi xidmətləri olan şəxslərin SOCAR-ın “Fəxri neftçi” döş nişanı ilə təltif edilməsi də öz əksini tapıb.

SOCAR-ın prezidenti, Milli Məclisin deputatı Rövnəq Abdullayevin “Əsrin müqaviləsi Ulu Öndərimizin şah əsəri, bugünkü və gələcək inkişafımızın təməl daşıdır” sərlövhəli yazısında qeyd olunur ki, “Əsrin müqaviləsi”nin icrası prosesi bizim üçün 25 il ərzində alışdığımız adi həyat tərzi və fəaliyyətimizin obyektiv inikasıdırsa, tarixi baxımdan uzunmüddətli perspektiv və gələcəyə nəzər saldıqda bu hadisə Azərbaycanın inkişaf və yüksəliş yolunda əsas dönüş nöqtəsi olmuşdur. Ötən 25 ildə qazandığımız uğurların bəhrələri xalqımızın gündəlik həyatında, məişətində, maddi rifah halında da bariz şəkildə hiss olunur. Görülən titanik işlər öz həcminə və əhəmiyyətinə görə olduqca möhtəşəm və heyrətamizdir. Yazıda o da qeyd edilir ki, dövlətimizin başçısı İlham Əliyev “Əsrin müqaviləsi”nin tarixi əhəmiyyətini vurğulayarkən onu “uğurlu inkişafımızın əsas mənbəyi” adlandırır.

SOCAR-ın birinci vitse-prezidenti, akademik Xoşbəxt Yusifzadənin “Əsrə bərabər 25 il” yazısında müqavilənin imzalanmasına qədər keçilən yoldan, aparılan danışıqlardan, həmçinin “Əsrin müqaviləsi”nin iqtisadi və siyasi əhəmiyyətindən geniş bəhs olunur. Müqavilənin imzalanmasının heç də asan başa gəlmədiyini qeyd edən akademik bildirir ki, Ulu Öndər Heydər Əliyev 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıtdıqdan sonra digər sahələr kimi, neft sənayesinin bərpası və inkişafı ilə də məşğul olmağa başladı. Yazıda “Əsrin müqaviləsi”nin Azərbaycan üçün iqtisadi və siyasi əhəmiyyəti xüsusi qeyd edilir. Vurğulanır ki, müqavilə bir daha dünyaya nümayiş etdirdi ki, Azərbaycan müstəqil dövlət və etibarlı tərəfdaşdır, burada işləmək və bu ölkəyə sərmayə qoymaq olar. Müqavilənin iqtisadi əhəmiyyəti isə ondan ibarətdir ki, neft hasilatı Azərbaycanın tarixində ən aşağı səviyyədən, 1997-ci ildəki 9 milyon tondan 2010-cu ildə 51 milyon tona çatıb.

Xüsusi buraxılışı vərəqlədikcə SOCAR-ın ayrı-ayrı sahələrdə tətbiq etdiyi yeniliklər, təcrübələr, qazandığı uğurlar ətraflı şəkildə ictimaiyyətə çatdırılır. Çoxsaylı məqalələrdə Neftçilər Günü ilə bağlı son bir ildə görülən işlərin qısa hesabatı və növbəti ilin hədəfləri açıqlanır.

Xüsusi buraxılışın son səhifəsində əksini tapan Ümummilli Lider Heydər Əliyevin “Azərbaycanın böyük neft və qaz sərvətlərinə malik olması bizim xalqımızın xoşbəxtliyidir və bu gün üçün, xalqımızın yaxşı yaşaması üçün, ölkəmizin inkişaf etməsi üçün ən əsas amildir” fikri malik olduğumuz təbii resurslardan səmərəli istifadənin ölkəmizə qazandırdığı uğurlara və onların fonunda perspektivlərə bələdçilik edir.

# Türkiyədə akademik Nizami Cəfərovun “Azərbaycan ədəbiyyatı tarixinin etüdləri” kitabı oxuculara təqdim olunub




Mədəniyyət Nazirliyinin “Azərbaycan Kitabının Dünyada Tanıdılması” layihəsi çərçivəsində akademik Nizami Cəfərovun qələmə aldığı “Azərbaycan ədəbiyyatı tarixinin etüdləri” kitabı Türkiyə türkcəsində çap olunaraq oxuculara təqdim edilib.

Nazirlikdən AZƏRTAC-a bildirilib ki, “Zəngin Yayınçılıq” nəşriyyatı tərəfindən 5000 tirajla çap olunan kitab Türkiyədə fəaliyyət göstərən əsas təhsil müəssisələrinin kitabxanalarına hədiyyə olunmaqla yanaşı, türkiyəli oxucular da satış köşklərindən bu kitabı əldə edə biləcəklər. Kitabı Türkiyə türkcəsinə tanınmış yazar Yurtsevən Şən çevirib.

Kitabda Azərbaycan ədəbiyyatı tarixinin əsas dövrləri, böyük şəxsiyyətlərin yaradıcılıq yolu, ideya-estetik təmayüllər işıqlandırılıb. N.Gəncəvinin, Füzulinin, M.P.Vaqifin, Aşıq Ələsgərin, M.Ə.Sabirin, Ə.B.Hüseynzadənin, A.İldırımın, S.Vurğunun, M.Hüseynin, M.Müşviqin, İ.Şıxlının, B.Vahabzadənin, H.Arifin, İ.Muğannanın, N.Həsənzadənin, Ananın, Elçinin, Zəlimxan Yaqubun, Afaq Məsudun və digər görkəmli söz adamlarının yaradıcılığına ayrıca oçerklər həsr edilib. Müəllif çalışıb ki, türkiyəli oxucularda Azərbaycan ədəbiyyatı barədə qədim dövrlərdən bu günə qədər aydın elmi təsəvvür yaransın.

Akademik Nizami Cəfərovun qələmə aldığı “Azərbaycan ədəbiyyatı tarixinin etüdləri” “Azərbaycan Kitabının Dünyada Tanıdılması” layihəsi çərçivəsində Mədəniyyət Nazirliyinin dəstəyi ilə Türkiyədə çap olunan sayca 43-cü kitabdır.

# “Nar”ın baş sponsorluğu ilə ən baxımlı intellektual yarış start götürür




“Nar”ın baş sponsorluğ ilə ölkənin ən maraqlı və baxımlı intellektual yarışı olan “Breyn Rinq”in 14-cü mövsümü start götürür. Təhsilə, elmə və maariflənmənin təbliğinə xüsusi önəm verən “Nar” artıq 7 ildir ki, “Breyn Rinq” intellektual yarışının baş sponsorudur. Bu mövsüm mübarizəyə ölkə üzrə 34 komanda qoşulacaq. Yarış hər həftənin bazar günü saat 20:00-də İctima Televiziyada yayımlanacaq. İlk oyun sentyabrın 22-si start götürəcək və yanvarın əvvəlinə qədər davam edəcək.

**“11 universitet və 15 region komandası da daxil olmaqla bütün komandaların bir məqsədi var. O da qalib gəlmək. İlk efirə çıxdığımız gündən verilişdə çox şey dəyişdi. Neçə yeni komanda yarandı, neçə güclü komanda dağıldı və hətta bu il studiyamız da dəyişdi. 7 ildə dəyişməyən Baş Sponsorumuz “Nar”a təşəkkür edirik!”,** - deyə “Breyn Rinq” yarışının aparıcısı DJ Fateh bildirib.

Qeyd edək ki, “Bilik” kuboku və “Nar” tərəfindən təsis edilmiş “Nar” kubokunun qalibləri Azərbaycan çempionu titulu uğrunda yarışmaq hüququ əldə edir. Bu mövsüm isə komandalar “Bilik” kuboku uğrunda mübarizə aparacaq. “Bilik” kubokunun qalibi ötən mövsüm “Nar” kubokunun qalibi olmuş “Nar” komandası ilə “Breyn Ring 2019” Azərbaycan çempionu titulu uğrunda mübarizə aparacaq.

Hər il olduğu kimi, bu il də müsabiqə izləyiciləri üçün “Nar”ın “Facebook” səhifəsində xüsusi müsabiqə keçiriləcək. “Breyn Rinq”-in efirdə yayımlandığı saatda səhifədə paylaşılan suala ən tez cavab verən şəxs “Nar” tərəfindən xüsusi hədiyyə ilə mükafatlandırılacaq.

Qeyd edək ki, “Nar” gənclərin maariflənməsinin, dünyagörüşünün və analitik düşüncə bacarığının inkişafını stimullaşdırmaq məqsədilə müxtəlif intellektual oyunları dəstəkləyir.

Təsisçi:
Yeni Azərbaycan Partiyası
Baş redaktor:
Hikmət BABAOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyov - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4820
“Kapital Bank”ın Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

İnformasiya mənbələrimiz:
“AZƏRTAC”,
“Azadinform”, “SİA”
Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Buraxılışa məsul:
Zahid İLHAMOĞLU